## Xocavənddə Ermənistana məxsus "Mİ-8" helikopterinin qalıqları aşkarlanıb



**Dünən Xocavənd rayonunun Tuğ kəndi ərazisində Ermənistan Silahlı Qüvvələrinə məxsus "Mİ-8" helikopterinin qalıqları aşkar edilib.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, aparılan araşdırmalar nəticəsində müəyyən olunub ki, həmin qalıqlar Vətən müharibəsi zamanı 2020-ci il oktyabr ayının 18-də Xocavənd rayonunun Tuğ kəndi istiqamətində Azərbaycan Hərbi Hava Qüvvələrinin bölmələri tərəfindən ekipajı ilə birlikdə vurulan Ermənistan Silahlı Qüvvələrinə məxsus "Mİ-8" helikopteridir.



## Bakıda həbsxanada 5 məhkum öldü

**Bakıda beş məhbus həbsdə ölüb. Lent.az ildirir ki, hadisə son günlər Penitensiar Xidmətin Bakıdakı müalicə müəssisəsində qeydə alınıb.**

Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə müxtəlif müddətlərə azadlıqdan məhrum edilmişlər - Arif Şəmilov, Bəhram Cəfərov, Sabbas Ağacanov, Gülağa İmamverdiyev və Aydın Qulamov dünyasını dəyişiblər. Onların xəstəlikdən öldüyü bildirilir.


№ 142 (5664), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 12 avqust 2022-ci il (cümə)





## Baş nazir qərar imzalayıb

### Şuşadakı abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və dayandırılması qaydası təsdiqlənib

**"Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişlərin məzmunu, habelə təhlükənin aradan qaldırılması tədbirləri, onların həyata keçirilməsi Qaydası və müddəti" təsdiqlənib.**

"Şərq" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Qərar Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişlərin məzmununu, təhlükənin aradan qaldırılması tədbirlərini, onların həyata keçirilməsi qaydasını və müddətini müəyyən edir. Bununla da Şuşa şəhərinin hüdudları daxilində Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktları ilə müəyyən edilmiş hüquqi tənzimləmənin tətbiqinə zəmin yaradılmış olur.



## Növbəti danışıqlar Qarsda keçirilə bilər

### Türkiyə və Ermənistan xüsusi nümayəndələrinin sentyabrda görüşü gözlənilir

**Türkiyə və Ermənistanın xüsusi nümayəndələri Sərdar Kılıç və Ruben Rubinyan arasında növbəti görüş sentyabrda Qarsda keçirilə bilər.**

Bu barədə Türkiyənin "Ulusal" telekanalı diplomatik mənbələrə istinadən məlumat yayıb.

Məlumatda bildirilir ki, danışıqlarda iki ölkənin xarici işlər, ticarət və nəqliyyat qurumlarının nümayəndələrinin iştirakı nəzərdə tutulur. Görüşün yekununa dair texniki məsələlərin hazırlanmasına başlanacaq.

(səh.2)

## Tapşırıqlar yerinə yetirilir

### Azərbaycan Ordusu Buzdux və digər hakim yüksəkliklərdə mühəndis işləri görür



**Azərbaycan Ordusu tərəfindən ərazidə aparılan dəqiqləşdirmələr nəticəsində nəzarətə götürülən Buzdux və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklərdə mühəndis təminatı üzrə tapşırıqlar yerinə yetirilir.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Bölmələrimiz tərəfindən əlverişli hədlərdə yeni mövqelərin qurulması və dəqiqləşdirilmiş mövqelərə təminat yollarının çəkilməsi üzrə mühəndis işləri görülür. Azad edilən ərazi və hakim yüksəkliklərdə mühəndis təminatı üzrə zəruri tədbirlər davam etdirilir.

# Yol tam hazırdır

## Laçın dəhlizi və ətraf ərazilər tezliklə nəzarətimizə keçəcək



**Laçın şəhəri və Zabux kəndində yaşayan ermənilərə ərazini boşaltmaları üçün avqustun 25-dək vaxt verilib. Separatçı Hayk Xanumyan ermənilərə köç zamanı yardım göstəriləcəyini deyib. Onun sözlərinə görə, Zabux ermənilərinə Ermənistanda, yaxud Qarabağda mənzillər veriləcək.**

Amma bunun üçün onlardan kənddəki evlərə ziyan vurmamaq tələb olunub. Çünki ermənilər öz xislətinə uyğun olaraq Zabux kəndini tərk edərkən yaşadıqları evlərə od vururlar. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, Laçın dəhlizinə alternativ yeni yolda işlər yekunlaşan kimi Rusiya sülhməramlı qüvvələrinin həmin yola keçirilməsi nəzərdə tutulur. Məlumata görə, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan tikinti işləri artıq yekunlaşıb. Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun tikintisinə 2021-ci ilin iyul ayında başlanılmışdı. Yolun ümumi uzunluğu 32 km təşkil edir. Ermənistan həmin yolun öz ərazisinə düşən hissəsinin - Təğ-Kornidzor yolunun yenidən qurulması üzrə işlərə avqust ayında başlayacağını bildirmişdi.

(səh.3)

# "Evlərdən çörək ətri yoxa çıxıb"

### "Hamı qutu evlərdən çıxıb kənd evlərinə köçməlidir"



**"Nə qədər yeyirsən ye, bir saat sonra yenə acırsan. Marketlərdə ağzına qədər dolu qida məhsulları nə qədər alırsan al, yenə elə bil nəsə çatmır. Heç düşündük ki, görən niyə əvvəlki doyum indi yoxdu?".**

Bu sözləri qida məsələləri üzrə mütəxəssis Ağa Salamov sosial şəbəkə hesabında yazıb.

Onun fikrincə, əvvəl yerli və az məhsul olsa da, keyfiyyətli qida var idi və yeyib doyurduq. İndi isə cürbəcür rəngdə və çeşiddə olan məhsullar nə qədər istəsən var, amma qida dəyəri olmadığı üçün, insanlar bu qidaları həzm-rentabeldən keçirdikdən 1-2 saat sonra yenə acırlar...

(səh.4)



## İranın Qafandakı konsulu vəzifəsinin icrasına başlayıb

**Abedin Varamin İranın Ermənistanın Qafan şəhərində Baş konsulu təyin edilib.**

APA-nın xəbərinə görə, bunu Ermənistan mətbuatına İran parlamentinin deputatı Robert Beqlaryan bildirib.

Deputat bildirib ki, Baş konsul artıq İrəvandadır, bir sıra görüşlər keçirib və vəzifəsinin icrasına başlayıb.

Bununla yanaşı, Beqlaryan əlavə edib ki, bürokratik manevrlər diplomatın öz missiyasını tam şəkildə icra etməsinə mane olur: "Məndə olan məlumata görə, Baş konsulluğun yerləşəcəyi bina hələ hazır deyil".

## AzTV-nin operatoru qəfil vəfat etdi



**Azərbaycan Dövlət Televiziyasının (AzTV) operatoru Fariz Babayev vəfat edib.**

Bakupost.az xəbər verir ki, məlumata görə, o, məzuniyyətdə olarkən qəfil dünyasını dəyişib. 1983-cü il təvəllüdlü F.Babayevin hansı səbəbdən vəfat etdiyi məlum deyil.

Qeyd edək ki, mərhum ailəli idi, bir övladı var.

**Allah rəhmət eləsin!**

## Ölən olmayıb

### Son sutkada 488 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 488 yeni yoluxma faktı qeydə alınıb, 492 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 803 645 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 790 685 nəfər müalicə olunaraq sağalıb, 9 768 nəfər vəfat edib, aktiv xəstə sayı 3 192 nəfərdir.

*Ölkədə son sutka ərzində 4 076, hazırkı dövrədək isə 7 084 848 test aparılıb.*



## AQTA məsələnin üzərinə getmir

### Əksər marketlərdə gecələr soyuducular söndürülür

(səh.6)

## "Azərbaycanda normal hərbi ekspert yoxdur"

### "Tezliklə bu problemin həlli üçün məktəb formalaşdırmalıyıq"

(səh.4)



# "Yaydığı məlumatlar yalandır, heç bir əsası yoxdur"

## Müdafiə Nazirliyi ehtiyatda olan polkovnikin iddialarına cavab verib

**Uzun sürən onkoloji xəstəliyinə görə ehtiyata buraxılan və qəbul edilən qərarla razılaşmayaraq yutub media paylaşım şəbəkəsində ölkə başçısına müraciət edən polkovnik Elnur Məmmədov özünün şəxsi maraqlarını və ambisiyalarını düşünərək, artıq bununla bir neçə dəfədir ki, belə addımlara əl atır. Görünən odur ki, bu hal ehtiyata buraxılan hərbi qulluqçuda vərdiş halına çevrilib.**



Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib.

"Əvvəllər də xidməti karyerasında onunla bağlı bəzi qərarlar qəbul edilərkən o "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin tələblərinə zidd addımlar atmağa cəhd göstərib.

Bundan başqa, artıq ehtiyata buraxılan polkovnik əvvəlki illərdə dəfələrlə səhhəti ilə əlaqədar olaraq ordu rəhbərliyinə müraciət edib və indiyədək Müdafiə Nazirliyinin xətti ilə 8 dəfə ümumilikdə 1 ildən çox müddətə Türkiyə Respublikasının Gülhanə Tədris və Araşdırma Xəstəxanasına müalicəyə göndərilib. Müalicə dövründə bütün xərclər nazirlik tərəfindən qarşılanıb.

E.Məmmədovun barəsində qəbul edilən qərarla razılaşmaması, Nizamnamə qaydalarına uyğun olaraq müdafiə nazirinə rəsmi müraciət etmədən, etiraz əlaməti olaraq hərbçi etikasına və yüksək rütbəli zabitə yaraşmayan hərəkətə yol verməsi əvvəlki illərdə etdiyi hərəkətlərin təkrarıdır.

Bildiririk ki, həqiqi hərbi xidmətdə olmağın son yaş həddini keçən E.Məmmədov "hoçkin limfoması, xroniki gedişli, remisiya mərhələsində" diaqnozlu xəstəliklə hərbi xidmətə yararsız hesab olunaraq ehtiyata buraxılıb. Onun Vətən müharibəsində heç bir yaralanması olmayıb.

E.Məmmədovun sosial şəbəkələr vasitəsilə yaydığı məlumatlar yalandır, heç bir əsası yoxdur", - nazirlikdən qeyd olunub.



**Türkiyə və Ermənistanın xüsusi nümayəndələri Sərdar Kılıç və Ruben Rubinyan arasında növbəti görüş sentyabrda Qarsda keçirilə bilər.**

APA xəbər verir ki, bu barədə Türkiyənin "Ulusal" telekanalı diplomatik mənbələrə istinadən məlumat yayıb.

Məlumatda bildirilir ki, danışıqlarda iki ölkənin xarici işlər, ticarət və nəqliyyat qurumlarının nümayəndələrinin iştirakı nəzərdə tutulur. Görüşün yekununa dair texniki məsələlərin hazırlanmasına başlanacaq.

# Növbəti danışıqlar Qarsda keçirilə bilər

## Türkiyə və Ermənistan xüsusi nümayəndələrinin sentyabrda görüşü gözlənilir

"Ulusal" TV-nin istinad etdiyi XİN-dəki yüksək vəzifəli diplomatik mənbənin sözlərinə görə, Türkiyə tərəfi artıq Ermənistanla həmsərhəd ərazilərə baxış keçirib.

Onlar xüsusilə iki ölkəni birləşdirən Əlican körpüsü və yolun təmirinin zəruriliyinə diqqət yetiriblər.

Türkiyədə hesab edirlər ki, sərhəd açılandan sonra Ermənistan vətəndaşları sərhəd rayonlarına böyük maraq göstərəcək. Qeyd olunur ki, hətta bəzi yerli sakinlər bunu nəzərə alaraq, Ermənistandan gələcək qonaqlara xidmət üçün evlərini hotel tipində yenidən qurmağa başlayıb.

Qeyd edək ki, "A Haber" telekanalı bu gün Türkiyə Xarici İşlər Nazirliyindəki adı açıqlanmayan diplomata istinadən Türkiyə və Ermənistan xüsusi nümayəndələrinin növbəti görüşünün sentyabrda keçiriləcəyi barədə xəbər yayıb. Mənbə bildirib ki, Ankara görüşün üçüncü ölkədə keçirilməsinin tərəfdarı deyil.

Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Vaan Unanyan isə növbəti görüşün keçiriləcəyinə dair tərəflər arasında hələlik razılaşma olmadığını açıqlayıb.

Bu günə qədər səfir Serdar Kılıç və Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyan arasında 4 görüş olub.

# "Birliyimizi pozanlar Allah qarşısında böyük günah qazanır"

## Ceyhun Məmmədov: "Məzhəb və din zəminində münaqişələr heç bir ölkəyə xeyir gətirməyib"



**"Qarabağı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli və qəhrəman Azərbaycan Ordusu azad edib". Bu sözləri millət vəkili Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, bu qələbədə vətənini, dövlətini, torpağını sevən hər kəsin payı var:**

"Müqəddəs torpaqların işğaldan azad olunmasında Azərbaycanda yaşayan bütün dinlərin və xalqların payı var. Bu qələbə vahid, islam dəyərlərinə sadiqliyi ilə seçilən Azərbaycan xalqının qələbəsidir. O dövrün tarixini yaxşı oxuyanlar gözəl bilirlər ki, haqq və ədalət uğrunda canını fəda edən, ölümü ilə böyük bir qəhrəmanlıq məktəbi yaradan İmam Hüseyn heç zaman ayrı-seçkiliyin, müsəlmanların birliyinin pozulmasının tərəfdarı olmayıb. O, sona qədər müsəlmanlar arasında parçalanma və müharibənin baş verməməsi üçün səylə çalışıb. Ancaq qarşı tərəfin israrı nəticəsində müharibədən qaçmaq mümkün olmayıb. Ayrıseçkilik və qarşıdurmalar müsəlman dünyasına yalnız faciələr gətirib. Əgər kimsə qatı məzhəb təəssübkeşliyi və digər məzhəblərə hörmətsizliyi ilə islama xidmət etdiyini düşünürsə, səhv edir. Hamımız vahid islam ümmətini təmsil edirik. Bu gün bir sıra müsəlman ölkələrində məzhəb və din zəminində münaqişələrin həmin ölkələri hansı vəziyyətə gətirdiyini görürük. Odur ki, müsəlmanların birlik və bərabərliyini pozanlar Allah qatında böyük günah qazanırlar".

**Parlament üzvü vurğulayıb ki, Azərbaycan qədim dövrlərdən müxtəlif dinlərin və məzhəblərin birgə, sülh və qarşılıqlı anlaşma şəraitində yaşadığı məkan olub:** "Heç vaxt ölkəmizdə din və ya məzhəb zəminində münaqişə olmayıb. Bu baxımdan Azərbaycan müsəlman dünyası üçün hər zaman nümunə olub. Gələcəkdə də bu ənənənin davam etməsi üçün hər birimiz səylə çalışmalıyıq. Əgər çalışmasaq, nə tarix, nə də gələcək nəsil bunu bizə bağışlayacaq".

İsmayıl

# Şimali Kiprlə əlaqələr həmişə olub

## Ankaranın Bakıdan istəyi odur ki, təmaslar, gediş-gəliş daha da artsın



**Azərbaycan Prezidenti İlham Əliyev Konyada türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla yanaşı Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarla da görüşüb, onunla fikir mübadiləsi aparıb. Ersin Tatar "tviter" səhifəsində yazıb ki, dövlət başçısı İlham Əliyevlə görüş zamanı əlaqələrin inkişafını müzakirə ediblər.**

Rəsmi Bakı Qarabağ məsələsinə görə uzun müddət idi ki, Kiprin müstəqilliyini tanımırdı. Ehtiyat edirdi ki, yunanlar Azərbaycan əleyhinə Qarabağ separatçıları ilə əlaqələr qura bilərlər. Əslində Yunanıstanın və Kipr Yunan Respublikasının erməni separatizminə simpatiyası sirr deyil. İrəvanla üçlü format təsis ediblər. Lakin ekspertlərin fikrincə, Azərbaycan Qarabağda separatizmi tam bitirdikdən sonra Şimali Kipri rəsmən tanımaq imkanı qazanacaq.

**Politoloq Elxan Şahinoğlu deyib ki, ona qədər Azərbaycanın Şimali Kiprlə sıx iqtisadi və turizm əlaqələrini inkişaf etdirməyə heç nə mane olmur**. Analitik xatırladıb ki, mərhum dövlət başçısı Heydər Əliyev 1990-cı illərin sonunda Şimali Kipr Türk Respublikasının əfsanəvi lideri Rauf Denktaşı Bakıya dəvət etmişdi: "Bundan sonra Bakı-Lefkoşe təyyarə reysinin açılması gündəmdə idi. Ancaq iş yarımçıq qaldı. Şimali Kiprin gözəl turizm məkanları mövcuddur. Türkiyə üzərindən yay aylarında adada dincəlməyə gedən soydaşlarımız var. Kipr universitetlərində təhsil alan tələbələrimiz az deyil. Ticarət əlaqələrini genişləndirmək üçün də imkanlar var. Ankaranın da Bakıdan istəyi Azərbaycanın Şimali Kiprlə təmaslarının və gediş-gəlişlərinin artmasıdır".

İsmayıl



# "Qazi və şəhid ailələrini dövlətə qarşı qaldırmaq cinayətdir"

## Aqil Abbas: "Onları yoldan çıxardan mənbələr tapılmalı və kökü kəsilməlidir"

**Son zamanlarda şəhid ailələri və qazilərin bir qisminin din dəllalları, xaricdə maliyyələşən şəxslərin əla alması xəbərləri sosial medianın geniş müzakirə mövzusuna çevrilib.**

Bildirilir ki, bu işbazlar şəhid ailələri və qazilərdən öz məqsədləri üçün istifadə edirlər. Sosial şəbəkə istifadəçiləri və ziyalılar bunun SOS siqnalı olduğunu və aidiyyəti qurumların bunu tezliklə həll etməli olduğunu iddia edirlər. Onlar bildiriblər ki, problemləri dövlət həll etməlidir. Şəhid ailələri və qazilər yalnız öz dövlətinə arxalanmalıdır.

**Bunların İranın və İranpərəst qüvvələrin işi olduğunu deyən millət vəkili Aqil Abbas "Şərq"ə söyləyib ki, onları yoldan çıxardan mənbələr tapılmalı və kökü kəsilməlidir:** "Öncə bu şəxsləri yoldan çıxardan mənbənin kim olduğu öyrənilməlidir. Qazilərin və şəhid ailələrinin adından istifadə etmək, onları dövlətə qarşı qaldırmaq böyük günah və cinayətdir. Cinayəti hebsle islah etmək olur, lakin günahı ömrünün axırına kimi yumaq olmur. Heç bir müsəlman belə bir iş görməməlidir.

Bu işdə İranın "böyük rolu" var. Onlar çalışırlar ki, Azərbaycanda qarışıqlıq yaratsınlar. İran artıq burdan narkotranzit yolu kimi istifadə edə bilmir. Sərhədçilərimiz onların qarşısını alıb. Buna görə də aranı qatırlar. Vəziyyət həm ermənilərə, həm də İrana sərf edir. Bundan ötrü də hər kəsi diqqətli və həssas olmağa çağırıram.

Bu iş təkcə dövlətin, hökumətin yox, ictimaiyyətin də işidir. İctimaiyyət daha ayıq olmalı və belə hallara uymamalıdır".

Nihat Müzəffər

# Proses Azərbaycanın maraqlarına tam uyğundur

## Türkiyə-Ermənistan münasibətləri əvvəl-axır normallaşacaq

**Türkiyə Xarici İşlər Nazirliyinə istinadən yayılan məlumata görə, Türkiyə və Ermənistanın xüsusi nümayəndələri Sərdar Kılıç və Ruben Rubinyan arasında növbəti görüş sentyabrda keçiriləcək. Lakin Ermənistan tərəfi bunu təkzib edib.**




Xarici İşlər Nazirliyinin mətbuat katibi Vahan Unanyan deyib ki, hazırda Ermənistan və Türkiyənin xüsusi nümayəndələrinin yeni görüşü ilə bağlı razılıq yoxdur: "Ermənistan-Türkiyə münasibətlərinin normallaşması üçün xüsusi nümayəndələrin görüşləri barədə ictimaiyyəti vaxtında və qabaqcadan məlumatlandırırıq".

Qeyd edək ki, bu günə qədər Ankaranın təmsilçisi səfir Serdar Kılıç və Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyan 4 dəfə görüş keçirib.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə deyib ki, Türkiyə və Ermənistan arasında münasibətlər əvvəl-axır normal qonşuluq münasibətlərinə çevrilməlidir. Lakin partiya rəsmisi vurğulayıb ki, İrəvanın sərsəm iddialarının aradan qalxması, Azərbaycanla münasibətlərin qaydaya salınması vacibdir:** "Ermənistana gəlincə, son dönəmlərdə onunla münasibətlərdə "normallaşma" ifadəsi tez-tez işlədilsə də, önəmli problemlər hələ də qalmaqdadır. Ermənistanın 1990-cı il avqustun 23-də qəbul etdiyi Müstəqillik aktında Türkiyənin ərazi bütövlüyünə zidd ifadələr yer alıb. Hələ də qondarma "erməni soyqırımı"ndan bəhs olunur. Azərbaycan torpaqlarına iddialar davam edir. Erməni diasporunun türk dünyasına qarşı fəaliyyəti, Ermənistanın PKK-PYD-YPG kimi terror təşkilatlarına dəstəyi münasibətlərin normallaşmasına mane olan amillərdəndir. Türkiyəli diplomatların ASALA terrorçuları tərəfindən qətlə yetirilməsi, Azərbaycan türklərinə qarşı həyata keçirilmiş Xocalı soyqırımı, Ermənistanda Tələt Paşa üçün təhqir sayılacaq heykəlin mövcudluğunu da bu sıraya əlavə etmək olar. Azərbaycanın maraqlarının tam təmin olunacağı anlaşma imzalanmadan tələsməyə dəyməz".

*Ekspert bildirib ki, Türkiyə Ermənistanla əlaqələrin normallaşdırılmasına 2009-cu ildə edilmiş cəhd zamanı Azərbaycanla münasibətlərdə yaranmış problemlərin təkrarlanmaması üçün tələsik addımlar atmamalıdır*: "Diqqətli olmalıyıq. Bu vacib dönəmi Azərbaycanla davamlı məsləhətləşmələr aparmaqla keçirməlidir. Kasıb erməni əhalisinin dolanışıq üçün Türkiyəyə üz tutması halında Ermənistanda xalqın dəstəyini almaq istəyən siyasi qüvvələr mütləq bu faktı nəzərə almalı olacaqlar. Bu yolla da Türkiyə ilə münasibətlərin qorunması xalqın istəyi, tələbi olaraq Ermənistan siyasətində bir faktora çevriləcək. Bu da Azərbaycanın maraqlarına tam uyğundur və Qarabağ müzakirələrində Türkiyə Ermənistana daha səmərəli təzyiq etmək imkanı qazanacaq".

İsmayıl Qocayev

# İqtisadi problemlər Qərbi zəiflədib

## Kasıbçılıq artdıqca, Avropada radikal, millətçi, populist qruplar güclənəcək

**Avropada min kub metr qazın qiyməti 2 min 250 dollar olub. Avropa Birliyi ölkələri enerjidən istifadədə öz vətəndaşlarına çoxsaylı məhdudiyyətlər gətirirlər. Hətta elektrik enerjisinin, qazın, suyun günün bəlli saatlarında kəsiləcəyini, məhdudiyyətlər olacağını söyləyib vətəndaşları buna hazırlayırlar.**



Rusiyanın Ukraynaya təcavüzü, rəsmi Moskvanın enerji daşıyıcılarından silah, təzyiq vasitəsi kimi istifadə etməsi məlum məsələdir. Amma Qərbin, əsas da AB ölkələrinin bu məsələlərdə hazırlıqsız yaxalanması böyük qəbahətdir və səhvləridir.

**İqtisadçı Natiq Cəfərli deyib ki, Rusiya 2009-cu ildə qaz-neftdən silah kimi istifadə etmişdi. 2014-15-ci illərdə Avropa Birliyinə problemlər yaratmışdı. Amma Qərb bunları sanki görmürdü, duymurdu:** "Qərb çox yanlış addımlar atdı. Bərpaolunan enerjiyə çox güvəndilər, problemlər çıxdı. Alternativ mənbələr hazırlamadan AES-i bağladılar. Atom enerjisini zərərli elan etdilər, amma 2022-ci ilin yanvarında qərara yenidən baxıb atom enerjisini "yaşıl" elan etdilər. Pandemiya bəlasını isə o qədər zay, mənasız idarə etdilər ki, problemlər daha çox artdı, inflyasiya yüksəldi, tədarük zəncirləri qırıldı".

**N.Cəfərliyə görə, Ukrayna böhranı da göz görə-görə gəldi:** "2014-dən məlum idi ki, Rusiya Ukraynanı parçalayacaq. Krımı qopartdığı kimi şərq və cənubu da qoparmağa çalışacaq. Qərb ölkələri Kiyevə müharibə başlayandan milyardlarla dollar dəyərində silah-sursat yardımı ediblər. Son 8 ildə Ukraynaya indi təmin etdikləri dəstəyi niyə vermirdilər?! Xülasə, Qərb "sovetləşir" və bu məni çox narahat edir. Avropada işıq-qaz-su problemləri, inflyasiya və kasıblıq artdıqca, azadlıqları müxtəlif bəhanələrlə daraldıqca Qərbdə radikal, millətçi, populist qruplar güclənəcək. Qərbin ən güclü və ən zəif tərəfi eynidir - demokratiya və seçki. Sadəcə zamana və şəraitə görə bu amillər gah güclü, gah da zəif faktor olur. İndiki problemlər Qərbi zəiflədir, öz dəyər və prinsiplərindən uzaqlaşdırır. Bu çox təhlükəli tendensiyadır, avtoritar sistemlərə qol-qanad verən prosesdir".

İsmayıl

# Yol tam hazırdır

## Laçın dəhlizi və ətraf ərazilər tezliklə nəzarətimizə keçəcək



Bu, Qarabağa qanunsuz gediş-gəlişin önünü də alacaq

**Laçın şəhəri və Zabux kəndində yaşayan ermənilərə ərazini boşaltmaları üçün avqustun 25-dək vaxt verilib. Separatçı Hayk Xanumyan ermənilərə köç zamanı yardım göstəriləcəyini deyib. Onun sözlərinə görə, Zabux ermənilərinə Ermənistanda, yaxud Qarabağda mənzillər veriləcək.**

Amma bunun üçün onlardan kənddəki evlərə ziyan vurmamaq tələb olunub. Çünki ermənilər öz xislətinə uyğun olaraq Zabux kəndini tərk edərkən yaşadıqları evlərə od vururlar. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, Laçın dəhlizinə alternativ yeni yolda işlər yekunlaşan kimi Rusiya sülhməramlı qüvvələrinin həmin yola keçirilməsi nəzərdə tutulur. Məlumata görə, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan tikinti işləri artıq yekunlaşıb. Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun tikintisinə 2021-ci ilin iyul ayında başlanılmışdı. Yolun ümumi uzunluğu 32 km təşkil edir. Ermənistan həmin yolun öz ərazisinə düşən hissəsinin - Teğ-Kornidzor yolunun yenidən qurulması üzrə işlərə avqust ayında başlayacağını bildirmişdi. Ermənistan Baş naziri Nikol Paşinyan da demişdi ki, Laçın dəhlizinə alternativ yol tikildikdən sonra hazırda ermənilərin məskunlaşdığı Laçın və Zabux kəndləri Azərbaycana təhvil veriləcək.

Rusiya Xarici İşlər Nazirliyi də vurğulayıb ki, Laçın dəhlizi məsələsi üçtərəfli razılaşma əsasında həllini tapmalıdır: ”Regiondakı vəziyyət hələ də Moskvanın diqqət mərkəzindədir. Bütün məsələlər, o cümlədən Laçın dəhlizi ilə bağlı məqam üçtərəfli razılaşma əsasında həll edilməlidir”.

**Ankara Universitetinin professoru Toğrul İsmayıl ”Şərq”ə açıqlamasında bildirib ki, Laçın şəhərinin mərkəzindən kənarda alternativ yolun çəkilişi 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatda əksini tapıb.** Professorun sözlərinə görə, Laçın rayonu və şəhərin mərkəzi gec-tez Azərbaycanın nəzarətinə keçməlidir: ”Rus sülhməramlılarının müvəqqəti nəzarət etdiyi Laçın dəhlizinin ətrafında ermənilər yaşamağa davam edirdi. Ancaq alternativ yolun çəkilişinin başa çatması ilə ermənilərin köçürülməsi prosesinə də start verildi. Əslində bu məsələdə Azərbaycan tərəfi tələsmir və üçtərəfli sazişə əsasən öhdəliklərini icra edir. Amma burada gecikən tərəf Ermənistandır. İrəvan müəyyən bəhanələrlə prosesi dalana dirəməyə çalışsa da, Bakı işi sürətləndirmək üçün əlindən gələni edir. Buna da haqqımız çatır. Azərbaycan öz qanuni torpaqlarında suverenliyi tam bərpa etmək, nəzarəti ələ almaq niyyətindədir. Zaman itirmədən həmin ərazilərdə bərpa-quruculuq işlərinə başlanmalı və Böyük Qayıdış həyata keçirilməlidir. Bunlar çox vacib məsələlərdir. Laçın dəhlizi adlanan bölgənin Azərbaycanın nəzarətinə keçməsi Qarabağa qanunsuz gediş-gəlişlərin də önünü alacaq. Yeni yolun istifadəyə verilməsindən sonra Azərbaycan gömrük-keçid postları kimi məsələləri də gündəmə gətirəcək. Bu həm də Zəngəzur dəhlizi məsələsində irəliyə doğru daha bir addım olacaq”.

**T.İsmayıl bəyan edib ki, Ermənistan öhdəliklərinə əməl etməkdən boyun qaçırır: ”Eyni zamanda bölgədəki qanunsuz** silahlı birləşmələrin çıxarılması prosesi gecikir. Paralel olaraq Qarabağda və Azərbaycan-Ermənistan sərhədində təxribatlara əl atılır, atəşkəs davamlı pozulur. Baş verənlər ümumi gedişatı ləngitsə də, yubatsa da, əvvəl-axır proses irəliyə doğru gedəcək və başa çatacaq. Hər hansı məsələnin reallaşmaması üçtərəfli bəyanatın icra olunmaması və qüvvədən düşməsi ilə nəticələnər ki, bu da ilk növbədə Ermənistanın ziyanına olar. Rusiya da üçtərəfli bəyanatın maddələrinin reallaşmasına müsbət yanaşdığını deyir. Daha doğrusu, buna məcbur olduğunu anlayır”.

**İsmayıl Qocayev**



# Bayraq Meydanında ən uca bayrağımız dalğalanacaq

## Tural Abbaslı: “Böhran vəziyyətində olsaq da, bu meydanın bərpası lazımlı addımdır”

**Bakıda dirək platformasının ümumi hündürlüyü 191 metr olan dünyanın ən hündür bayraq dirəyinin quraşdırılması prosesi aparılır. Bu dirək Türkiyənin ”Çimtaş” şirkəti tərəfindən hazırlanıb.**

Dirək əsasından yuxarıya qədər diametri 5,7 m-dən 2 m-ə qədər, çəkisi 230 ton ilə 13 ton arasında olan 9 polad konusvari boru seqmentindən və yuxarıda yerləşdiriləcək, fırlanan seqmentdən ibarət olacağı gözlənilir. Xatırladaq ki, bundan öncə dünyanın ən hündür bayraq dirəyini ucaltmaq milyonlarla manata başa gəlmişdi. Amma qısa müddət sonra məlum oldu ki, keyfiyyətsiz iş görülüb, bayraq və dirək söküldü.

> “Biz dövlət simvollarını qorumalıyıq”

**Bayraq dirəyinin barpasının vacib olduğunu deyən AĞ Partiyanın sədri Tural Abbaslı ”Şərq”ə bildirib ki, biz dövlət atributlarını və simvollarını qorumalıyıq:** ”Dövlət atributları və simvollarında təbliğat və təqdimat çox önəmlidir. Digər ölkələrdə də bayraq dirəyi, gerb, bayraq kimi atributlara kifayət qədər vəsait xərclənir. Məsələn, Amerikadakı ”Azad Qadın” heykəli, Fransadakı ”Eyfel” qülləsinə də yüksək məbləğdə pul ayrılır. Meydanın və dirəyin hazırlanmamasından öncə düşünülməli idi ki, biz azad olunmuş ərazilərin tikintisinə və bərpasına xeyli maliyə ayırmalıyıq.

Bildiyimiz kimi, Bayraq Meydanının tikintisi zamanı da milyonlarla yeyinti oldu. Lakin artıq bu düzəldilib və hazırdır.

Çünki biz Ginnesin rekordlar kitabına düşmüşük. Düşünürəm ki, böhran vəziyyətində olsaq da, bu meydanın bərpası lazımlı addımdır. Biz dövlət simvollarını qorumalıyıq. Ümid edirəm ki, bu da digərləri kimi keyfiyyətsiz olmayacaq.

Hər halda dünyanın ən hündür bayraq dirəyinə sahib olan ölkə səfirliklərinin üzərində dalğalanan bayrağını da qorumalıdır. ”Formula1” kimi yarışlara 50-60 milyon xərcləməkdənsə, bayraq dirəyinə xərcləməkləri daha yaxşıdır”.

**Nihat Müzəffər**





# “Dəmir yumruq” Qarabağ ermənilərini yumşaldıb

## Qabil Hüseynli: “Hələ Xankəndiyə tam nəzarət edə bilməsək də, onun ərtafındakı strateji cəhətdən əhəmiyyətli olan bütün yüksəkliklər Azərbaycan Ordusunun nəzarəti altındadır”

**Ermənistanın tanınmış ictimai xadimi Larisa Alaverdyan azərbaycanlılar üçün yaranmış real şəraitdən danışıb. O, mövcud geosiyasi vəziyyətin Azərbaycanın xeyrinə dəyişdiyinin artıq reallıq olması ilə barışmaqdan başqa yol görmədiyini qeyd edib:**

”Azərbaycan Prezidenti İlham Əliyev 1988-ci ildən sonra Ermənistandakı yaşayış məntəqələrini və evlərini tərk etmiş azərbaycanlıların geri qaytarılmasını dəqiq vəzifə kimi qarşıya qoyub və artıq bu əməliyyatı ardıcıl olaraq həyata keçirir”.

Otuz dörd il əvvəl Zəngəzurda, konkret olaraq, Ağudi kəndində yaşayan azərbaycanlılarla söhbətini xatırladan Alaverdiyan onların şərait yaranacağı təqdirdə buralara qayıda biləcəkləri ilə bağlı dediklərini xatırlayaraq söyləyib. L.Alaverdyan qeyd edib ki, artıq həmin azərbaycanlıların gözlədikləri şərait yaranıb. Qarabağın erməni sakinlərinin gələcək taleyi ilə bağlı suala cavab verən ictimai xadim onların Azərbaycan vətəndaşları kimi yaşamaqdan başqa yollarının olmadığını bildirib. Ermənistan tərəfindən gələn bu siqnallar bizdə onların artıq gerçəkləri anladıqları ve real vəziyyəti dərk etdikləri fikrini formalaşdırır. Yumşalma meyilləri aydın hiss olunur. Bəs bu, həqiqətən də belədirmi? Onlar bu qəbildən olan açıqlamalarında nə qədər səmimidirlər?

**Sualımızı cavablandıran sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli ”Şərq”ə deyib ki, Ermənistanla Azərbaycan münasibətlərində müsbət meyillərin işartısı görünür:**

”Ermənistanın radikal dairələri - ”Qarabağ klanı” və buna bənzər digər qüvvələr də ictimai-siyasi həyatda fəal deyillər. Zənnimcə, bu məsələdə Azərbaycanın sonuncu ”Qisas” antiterror əməliyyatı böyük rol oynadı. Bu əməliyyat erməniləri bir növ ayıltdı. Onlar anladılar ki, Qarabağla bağlı mənasız fikirlər onları xilas etməyəcək. Burada əsas məsələ konstruktiv mövqe tutmaqdır. Hələ ki, bu məsələdə müəyyən adamların fikirlərini görmək olur. Onlar Laçının iki kəndindən və rayon mərkəzindən çıxmağın labüdlüyünü söyləyirlər. Həmçinin onlar çıxarkən ərazidə olan evləri yandırmamağı tövsiyə edirlər. Avqustun sonlarına qədər Laçın rayonundakı sonuncu torpaqların işğaldan azad olunacağı görünür. Üstəlik, Qarabağın dağlıq hissəsindəki separatçılar da reallığı acı da olsa, qəbul etməyə başlayırlar. Artıq demək olar ki, Azərbaycan Qarabağın ermənilər yaşayan ərazilərinin böyük bir hissəsinə nəzarət edir”.

**Qarabağın bütün ərazilərinin demək olar ki, Azərbaycan Ordusunun nəzarətində olduğunu vurğulayan politoloq onu da əlavə edib ki, Xankəndi ətrafında nəzarət imkanlarımız xeyli artıb:** ”Beləliklə, Qarabağ ermənilərinin hər hansı separatçı əhval-ruhiyyəyə meyl etməsi imkansız kimi görünür. Hələ Xankəndiyə tam nəzarət edə bilməsək də, onun ərtafındakı strateji cəhətdən əhəmiyyətli olan bütün yüksəkliklər Azərbaycan Ordusunun nəzarəti altındadır. Bu səbəbdən də separatçıların yaşadığı Xankəndiyə hansısa separatçı hərəkətlərin həyata keçirilməsinin mümkünsüz olduğu aydın görünür. Hadisələri qabaqlayıb məsələ ilə bağlı müəyyən fikirlər söyləmək lazım gələrsə, deyə bilərəm ki, Azərbaycan artıq Xankəndiyə də nəzarət etmək missiyasını həyata keçirmək üzrədir. Bu məsələdə kifayət qədər irəliləyişlər əldə olunub”.

**Çimnaz Şahlar**

# Kiyev nəticəsiz görüşə qarşıdır

## Ukrayna Qərbin sonuncu hərbi yardımından sonra müəyyən psixoloji üstünlük qazanıb

**Ukrayna Müdafiə naziri Oleksiy Reznikov Rusiya ilə danışıqların şərtini açıqlayıb. Nazir bildirib ki, Rusiya ilə danışıqlar o zaman mümkündür ki, Ukraynanın tərəfdaşları masa arxasında əyləşsin:**

”Referendum” keçiriləcəyi halda, heç bir danışıqlardan söhbət getməyəcək. Amma sizə demək istəyirəm ki, rusiyalılarla danışıqlar şansı mümkündür. Tərəfdaşlarımız masa arxasında otursalar, bu, mümkün olacaq”. Reznikov həmçinin xatırladıb ki, ”Minsk-3” razılaşmasını əldə etməyin mənası yoxdur. Nazirin fikrincə, Ukraynadakı müharibə Suriya və Koreya senarisi ilə bitə bilməz: ”Yeganə variant Ukrayna Silahlı Qüvvələrinin qalib gəlməyinə inanmaqdır. Rusiya hələ 2014-cü ildə silahlı münaqişəni dondurmaq şansını əldən verdiyi üçün Ukraynada hərbi əməliyyatlar ”Koreya senarisi” ilə bitə bilməz. Həmçinin Suriya senarisi də mümkün deyil. Rusiyanın həm şəxsi heyət, həm də texnika baxımından resursu tükənir. Bizim isə tərəfdaşlarımız var. Bu, kollektiv Qərbdir”.

Avropa Birliyinin baş diplomatı Jozep Borrell isə deyib ki, Ukraynaya edilən hərbi yardımlar danışıqlar üçün səylər göstərilmədiyi anlamına gəlmir. Onun sözlərinə görə, avropalılar siyasi həll yolunun axtarışında uzunmüddətli münaqişə ilə üzləşməyə hazır olmalıdırlar”.

Xatırladaq ki, ekspertlər savaşın qış ayında bitəcəyini istisna etmirlər.




**Politoloq Turab Rzayev ”Şərq”ə bildirib ki, Ukrayna Qərbin sonuncu hərbi yardımından sonra müəyyən psixoloji üstünlük ələ keçirib. Analitik bildirib ki, Ukrayna Rusiyanın arxa cəbhədəki obyektlərini hədəf alır:** ”Krımın bombalanması Ukraynanın nə qədər ciddi olduğunu göstərdi. İndiki halda Kiyevin sülhə razılıq verəcəyi inandırıcı deyil. Belə məqamda sülhə imza atmaq, müdafiə nazirinin dediyi kimi ”Koreya variantı”na getmək olar. Yəni ölkə yarıdan iki hissəyə bölünər. Yaxud Suriya kimi fərqli qüvvələrin nəzarəti altına düşər. Ukrayna haqlı olaraq bunu istəmir. ”Normand dördlüyü” (Rusiya, Ukrayna, Almaniya, Fransa) arasında bir neçə Minsk razılaşması olsa da, nəticə əldə olunmayıb. Ona görə də Kiyev nəticəsiz görüşlər üçün atəşkəsin əldə olunmasına qarşı çıxır. Belə bir atəşkəs Ukraynanın sonu deməkdir. Sülh müzakirələri üçün Ukrayna bir şərtlə masada əyləşər ki, Kiyevin qərbli müttəfiqləri - ABŞ və Böyük Britaniya da onunla birgə olsunlar. Moskva da buna isti baxmır. Kreml Fransa və Almaniya kimi Avropa ölkələrinin masada olmasına göz yuma bilər. Bunun da səbəbi odur ki, həmin ölkələr Rusiya əleyhinə ciddi fəaliyyət göstərmirlər. Ukrayna cəbhələrdə hərbi üstünlük əldə etmədən müharibəni dayandırmağı düşünmür”.

**İsmayıl Qocayev**

# Sosial mediada yayılan məlumatların əksəriyyəti yanlış və natamamdır

## Belə xəbərlərin sürətlə yayılmasının qarşısını qanunvericiliklə almaq mümkündür

Son dövrlər bir çox sosial media istifadəçisi tərəfindən həqiqətə uyğun olmayan informasiyalar tirajlanır. Belə informasiyalar əksər hallarda vətəndaşlar arasında süni ajiotaj yaratmaq və ya hansısa şəxsin ictimai nüfuzuna xələl gətirmək məqsədilə yayımlanır. İnformasiya axını sürətləndikcə bu proses daha da genişlənir.

**Jurnalist, ”Yazar.in”in təsisçisi Vüsal Məmmədzadə hazırda sosial mediada yaradılan, insanları özünə çəkən ”yalan informasiya toru”ndan ”Şərq”ə danışıb:**

”Sosial media platformalarının yaranması ilə elmi ədəbiyyatda ”prosumer” anlayışı meydana gəlib. Bu, ingilis dilində ”istehsalçı” və ”istehlakçı” sözlərinin birləşməsidir və auditoriyanın xəbər oxumaqla yanaşı, xəbər yaratmasını ehtiva edir.

Sosial mediadakı sərbəst mühit hər istifadəçini xəbər istehsalçısına çevirib. Bu isə özü ilə bəzi problemlər gətirib. Təcrübə göstərir ki, sosial mediada yayılan informasiyalar əksər hallarda yanlış və ya natamam olur. Buna görə, peşəkar media qurumları sosial mediada yayılan xəbərlərin həqiqiliyini yoxlamamış yayımlamaqdan çəkinirlər”.



*V.Məmmədli diqqətə çatdırıb ki, sosial mediada hər hansı mövzu ətrafında müzakirələr vaxtı yanlış düşüncələrin doğru məlumatları üstələməsi cəmiyyətin intellektual səviyyəsindən xəbər verir:* ”Sosial media platformaları, sadəcə, kommunikasiya üçün vasitədir. Bu gün dayanmadan informasiya qəbul edən internet istifadəçiləri yanlış məlumatlardan qorunmaq üçün əldə etdikləri xəbərləri etibarlı mənbələrlə yoxlamalıdırlar. Nəzərə almaq lazımdır ki, sosial mediada informasiya sürətlə ”əldən-ələ keçir” və bu, xəbərin şayiəyə çevrilməsi ehtimalını artırır. Ona görə, informasiyanı rəsmi mənbələr və etibarlı media kanallarından əldə etmək əhəmiyyətlidir”.

**V.Məmmədlinin sözlərinə görə, indi yanlış xəbərlərin sosial media platformalarında sürətlə yayılmasının qarşısını qanunvericiliklə də almaq mümkündür:** ”Bəzi ölkələrdə internet haqqında qanunlar qəbul olunur və bu sənədlərlə sosial media istifadəçilərinin davranışları da tənzimlənir. Doğrudur, bu, bəzən, söz azadlığının məhdudlaşdırılması kimi qiymətləndirilir.

Ancaq cəmiyyəti yanıldan, bununla dövlət və ya ayrı-ayrı şəxslərin təhlükəsizliyini təhdid edən məlumatlar paylaşan şəxslərlə bağlı qanunvericiliyin tələblərindən irəli gələrək ciddi tədbirlərin görülməsi sosial media platformalarında yanlış informasiyaların yayılması hallarını azalda bilər”.

**Günəş Mərd**



# "Evlərdən çörək ətri yoxa çıxıb"

**Ağa Salamov:** "Qıtlıq olmaması üçün bunu etməliyik, çünki yeni dünya düzəninin oyunlarında başda qıtlıq gəlir"

**"Nə qədər yeyirsən ye, bir saat sonra yenə acırsan. Marketlərdə ağzına qədər dolu qida məhsulları nə qədər alırsan al, yenə elə bil nəsə çatmır. Heç düşündük ki, görən niyə əvvəlki doyum indi yoxdu?". Bu sözləri qida məsələləri üzrə mütəxəssis Ağa Salamov sosial şəbəkə hesabında yazıb.**

Onun fikrincə, əvvəl yerli və az məhsul olsa da, keyfiyyətli qida var idi və yeyib doyurduq. İndi isə cürbəcür rəngdə və çeşiddə olan məhsullar nə qədər istəsən var, amma qida dəyəri olmadığı üçün, insanlar bu qidaları həzm-rentabeldən keçirdikdən 1-2 saat sonra yenə acırlar: "Bu qida məhsullarından biri də çörəkdir. Bir zamanlar hər evdən və həyət-bacadan çörək qoxusu elə yayılardı ki, uşaqlar da başda olmaqla hamı o çörəyin ətri ilə yuxudan oyanardı. İndi bu ətirli çörəklər təəssüf olsun ki, çox az miqdarda və barmaqla sayılacaq qədər evdə bişirilir. Biz hələ pandemiya dönəmindən də öncə təbliğat aparanda ən çox toxunduğumuz məsələ ev şəraitində hazırlanan yeməklər idi. İndi bütün dünya israfçılığın qarşısını almaq üçün çətin hazırlana bilən yeməklərin trendinə başlayıb. Bura evdə hazırlanan çörəklər də daxildir. Biri var un alıb çörək bişirilə, biri də var əvvəlki kimi buğda əl dəyirmanında üyüdülüb çörək hazırlana.

Evdə bişirilən çörəkdə rüşeym qismi ayrılmır. Zatən bütün mikroelementlər, vitaminlər buğda və çovdarın qabığındadır. Dükandan aldığımız çörəyin qabığı, rüşeym qismi ayrılır "əla növ" un əldə olunur. "Əla növ" undan hazırlanan çörək də zavod çörəyi adlanır. Bu da elmi dildə desək, boş karbohidratdır, heç bir vitamindən və mikroelementlərdən söhbət gedə bilməz".

Mütəxəssisin sözlərinə görə, gələcəkdə qıtlığı nəzərə alaraq ev dəyirmanları bərpa edilməli, insanların torpağa sevgisi birə-beş artmalıdır: "İndi ortaya bir sual çıxır ki, əl dəyirmanında hazırlanan çörəklə dükanda satılan çörəyin fərqi nədir? Burda böyük bir fərq var. Birincinin tamında, qoxusunda fərq var. Yəni dükanda satılan çörəklə, evdə çovdarla tam buğda ununun

"Hamı qutu evlərdən çıxıb kənd evlərinə köçməlidir"

qarışığından hazırlanmış çörək arasında fərq var. Hamı qutu evlərdən çıxıb kənd evlərinə köçməlidir, şəhər anlayışı olmalı deyil. Qıtlıq olmaması üçün bunu etməliyik, çünki yeni dünya düzəninin oyunlarında başda qıtlıq gəlir. Dünyada taxılın qiymətinin artması, müxtəlif müharibələr səbəbi ilə yaranan qıtlığın qarşısını, yalnız yerli istehsal və insanların torpağa bağlı olması aradan qaldıra bilər. Başqa yol isə təəssüf ki yoxdur, çünki bizi yedizdirib bəsləyən və öləndə də ağuşuna alan ana torpaqdır. Beton evlər deyil".

**A.Salamov qeyd edib ki, evdə buğdanın çovdarla üyüdülüb bişirilməsi həm də dietik sayılır:** "Bu çörəyin qida dəyəri o qədər yüksəkdir ki, bir dilimdən artıq yemək olmur. Həmçinin bu, zavod çörəyindən bir az ağır olur".

**Şəymən**

# Taxıl anlaşmasının dayanması Kremlə baha başa gələ bilər

Moskva özünü dünyaya bir balaca da olsun "humanist" göstərmək üçün anlaşmaya sadiq qalmalıdır




**Ukraynadan taxıl daşıyan heç bir gəmi Afrikanın ac ölkələrinə çatmayıb. Bunu Rusiya Xarici İşlər Nazirliyi iddia edib. Nazirlikdən vurğulanıb ki, gəmilər əsasən, Qərb ölkələrinin limanlarına gedir.**

Bu, Qərbin taxıl sazişinin dünyanın ərzaq təhlükəsizliyini möhkəmləndirmək barədə tezislərinin səmimiliyini şübhə altına alır. Məlumat üçün bildirək ki, iyulun 22-də Türkiyə, Ukrayna və Rusiya nümayəndələri arasında Ukraynadan taxıl ixracına dair saziş imzalanıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və BMT baş katibi Antonio Quterreşin iştirakı ilə imzalanan sazişə Türkiyə və Rusiya tərəfdən müdafiə nazirləri, Ukrayna tərəfdənsə infrastruktur naziri qol çəkib. Saziş imzalandıqdan sonra bir neçə taxıl yüklü gəmi Ukraynadan yola düşüb. Taxıl gəmilərinin ilk növbədə Afrikanın və Yaxın Şərqin kasıb ölkələrinə gedəcəyi bildirilib. Nəzərə alaq ki, Afrikanın taxıl ehtiyacının 40 faizini Rusiya və Ukrayna təmin edir. Dünyada hər il 785 milyon ton taxıl yetişdirilir. Bunun təxminən dördə biri - 200 milyon tona yaxın bölümü başqa ölkələrə ixrac edilir. Yerdə qalan hissə ölkələrin daxili tələbatına yönəldilir. Başqa ölkələrə ixrac edilən taxılın təxminən üçdə birini - 60 milyon tona yaxın bölümünü elə Rusiya və Ukrayna ixrac edir. Bu səbəbdən Rusiya-Ukrayna müharibəsi dünyanın taxıl bazarlarına ciddi təsir göstərib.

**Millət vəkili Asim Mollazadə "Şərq"ə bildirib ki, Türkiyənin vasitəçiliyi ilə reallaşmış "taxıl anlaşması" Ukrayna taxılının limanlardan çıxmasında və ehtiyacı olan ölkələrə göndərilməsində çox mühüm rol oynadı. Deputat vurğulayıb ki, "taxıl razılaşması" ilə bağlı müvafiq işçi qrupları yaradılıb və vəziyyət nəzarətdədir**: "İstisna etmirəm ki, Rusiya hansısa məqamda planları dəyişdirə, daha kəskin mövqe tuta bilər. Yaxud prosesi ümumən dayandırar. Ancaq Rusiya belə bir addım atarsa, onunla hansısa razılaşmaya birdəfəlik inam itər. Rusiya ilə bundan sonra heç bir ölkə hər hansı istiqamətdə danışıq aparmaz. Bu, humanitar prosesdir. Böyük ehtimal, Moskva özünü dünyaya bir balaca da olsun "humanist" göstərmək üçün anlaşmaya sadiq qalmalıdır. Əks halda Rusiya özünü daha dərin böhrana yuvarlayacaq. Hazırda Ukraynada çox ağır fəlakətlər, faciələr yaşanır. O baxımdan bütün dünya Ukraynaya dəstək verməlidir ki, müharibə dayansın və faciə aradan qalxsın".

**İsmayıl**

# "Azərbaycanda normal hərbi ekspert yoxdur"

"Tezliklə bu problemin həlli üçün məktəb formalaşdırmalıyıq"

**Azərbaycan mediasının "yaralı" yerlərindən biri də hərbi ekspert çatışmazlığıdır. Ölkəmizdə iqtisadiyyat, hüquq, tibb, kənd təsərrüfatı kimi sahələr üzrə yetərincə ekspert olsa da, hərb sahəsində ciddi şəkildə ekspert qıtlığı yaşanır.**

Bu səbəbdən hətta bəzən reportyorlar suallarına cavab tapmaq üçün digər sahələrin ekspertlərinə üz tuturlar. Onlar da bir növ özlərini məcbur hiss edib məsələyə münasibət bildirirlər.

**"Dinc Dünya" Araşdırma Mərkəzinin sədri Alisafa Mehdiyev ölkəmizdə hərbi ekspert qıtlığını yaradan səbəbləri "Şərq"ə sadalayıb:**

"İndi hərbi ekspert kimi Ədalət Verdiyev, Üzeyir Cəfərov, bir az da Alparsalan İmamqulu danışdırılır. Əslində kimin ekspertiza etmək haqqı varsa, onlar ekspert sayılır. Hazırda bütün redaksiyaların müxtəlif sahələr üzrə özlərinin ekspert bazası yoxdur. Birini ekspert kimi təqdim edəndə diqqət yetirməliyik ki, bu şəxs informasiya verir, yoxsa baş vermiş hadisəyə bizim xahişimizlə şərh verir? Şərhçilərlə ekspertləri qarışdırmaq olmaz. Bizdə yetərincə politologiya şərhçiləri var. Amma ekspert bunun ən yüksək səviyyəsidir. Üzeyir Cəfərov hərbçilərin hüquqlarını müdafiə sahəsində şərh verir. Onun dediyi fikirlər bir vətəndaş fikridir. Ədalət Verdiyev hərbin sahələrini qarışdırır. Hərb həddindən artıq geniş sahədir. Hərbi nizamnamələr üzrə ən azı dörd ekspert olmalıdır. Üzeyir Cəfərov şəxsi heyət üzrə mütəxəssisdir. Bu istiqamətdə ekspertlik edə bilər".

A.Mehdiyev vurğulayıb ki , hazırda hər hansısa bir zabiti hərbi ekspert kimi danışdırırıq, o da



"Buna görə bütün redaktorlar bir araya gəlib səslərini duyurmalıdırlar"

məcbur bizə Ermənistan-Azərbaycan münasibətlərinin bildiyimiz tərəflərindən danışır, məsələni siyasi istiqamətə yönəldir: "Kimisə ekspert adlandıranda son dərəcə ehtiyatlı olmalıyıq. Hazırda ölkəmizdə müxtəlif qoşun növləri üzrə danışa biləcək nə qədər hazırlıqlı zabit var?

Təəssüflər olsun ki, çox az. Redaksiyaların özləri bu sahə ilə bağlı işləyə biləcəyi mütəxəssisləri müəyyən etməlidirlər. Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyinin nəzdində olan Daxili Qoşunlarda, Mülki Müdafiə Qoşunlarında olan zabitlərin hər biri öz sahəsi üzrə danışmağı bacarmalıdırlar. Reportyorlar da öz növbəsində sualı düzgün şəxsə ünvanlamalıdırlar. Bəzən müxbirlər eksperti məcbur edirlər ki, bilmədiyi sahədən danışsın. Reportyorun özü sual verdiyi sahəni bilməlidir. Mən təqaüddə olan mayoram, uzun müddət döyüşmüşəm, buna rəğmən yenə də hərbi ekspert olmaqdan ehtiyat edirəm. Ancaq bu sahədə hansısa informasiya verə bilərəm. Ekspertlik səviyyəsi tamamilə başqadır".

Onun sözlərinə görə, özünə hərbi ekspert deyən mütəxəssis Sun Dzının 2500 il bundan öncə yazdığı "Savaş sənəti"ni oxumalı, intibah dövrünün florensiyalı dövlət xadimi Nikolo Makiavellinin əsərlərindən xəbərdar olmalıdır: "Bu zaman onlar nəyi, necə danışmalı olduqlarını biləcəklər. Hərbi ekspertlər hərbin bütün texnologiyalarından xəbərdar olmalıdırlar. Hazırda bizdə belə mütəxəssislər yoxdur. Hazırda Azərbaycan hərb sistemində azad düşüncə imkanı həddən artıq azdır. Bu, onların illərlə hərbi rejimdə yaşamaları və hərbi rejimin onların xarakterinə yansıması ilə bağlıdır. Müdafiə Nazirliyi özü çox istəyər ki, hərb sahəsində yaxşı ekspertlər olsun. Amma təqaüdə çıxanları tapıb, ekspert kimi yetişdirmək də çətindir. Xidmətdə olanlar isə gördüyümüz kimi çox quru şəkildə ona təlqin edilən fikirləri çatdırır. Bizdə vəziyyət bu cürdür".

**Müsahibimiz hərbi ekspert sahəsində dünya təcrübəsinə də diqqət çəkib:** "Türkiyə və Rusiyanın hərbi ekspertlərinə baxsaq, görərik ki, orda birbaşa generallar, polkovniklər yüksək səviyyədə hərbi ekspertlik edirlər. Bizdə normal hərbi ekspert yoxdur. Tezliklə bu problemin həlli üçün belə bir məktəb formalaşdırmalıyıq. Buna görə isə bütün redaktorlar bir araya gəlib səslərini duyurmalıdırlar".

**Günəş Mərd**



**Elşad Miri:** "Bəs bu döyüşçülərin arasında əliçilər, həsənçilər, muhammadilər və yaxud Quran tərəfdarları yoxdurmu?"

# "Kaş ki, Fazil Mustafanın apardığı təbliğata 124 deputat da qoşula"

İlahiyyatçı müharibədə iştirak edənləri hüseynçi hesab edənlərə öz suallarını ünvanlayıb

**Meyxanaçıların dini qəzəllər, meyxanalar deməsi, dini kəsimə ünvanlanan mesajlar və təfriqə doğuran bədiyyələr aktiv müzakirə predmetinə çevrilib. Müşahidələrə əsasən deyə bilərik ki, ən çox dini meyxanalar səsləndirən meyxanaçılardan biri də məhz Elşən Xəzərdir.**

Onun dediyi son dini qəzəl isə birmənalı qarşılanmayıb. Belə ki, meyxanaçının dini məclisdə söylədiyi qəzəldən

"Sinə vuranlar idi səngərdə duranlar,

Azad etdi torpağı qüdrətli hüseynçilər"

beyti bir neçə gündür ki, cəmiyyətin müxtəlif təbəqələrində müzakirə edilir, ziyalılar, bəzi ədəbiyyatşünaslar meyxanaların dini məzmununa etiraz edirlər. Bəzi sosial və siyasi fəallar Elşən Xəzərin bu ifadələri 44 günlük Vətən savaşında Zəfər qazanan Azərbaycan Milli Ordusunda parçalanma yaratmaq niyyəti ilə işlətdiyini iddia edir. E.Xəzərin bu "qəzəli" cəmiyyətdə tənqid olunmaqla yanaşı, parlamentari səviyyəsində də qınanılıb. Millət vəkili Fazil Mustafa qeyd edib ki, bu, səviyyəsizcəsinə başqa ölkənin təbliğatını aparmaq üçün irəli atılan addımdır.

Deputatın sözlərinə görə, Qarabağı Azərbaycan xalqı - xristianı, müsəlmanı, yəhudisi ilə din ayrı-seçkiliyi etmədən, türkü, talışı, tatı ilə isə xalq ayrı-seçkiliyi etmədən azad etdi: "Əgər hansısa məzhəb duyğusu ilə bu döyüşə girsəydik, gərək gedib ermənilərə dəstək verərdik. Çünki ermənilərə kimin dəstək verdiyi bəllidir. Qarabağda hər bir kəs Azərbaycanı qorumaq duyğusu ilə savaşdı.

Onların etdiyi bu hərəkət hayasızcasına hər bir Azərbaycan vətəndaşının öz vətənini azad etmə savaşına kölgə salır. Heç bir şəkildə Azərbaycan vətəndaşı hansısa məzhəbə görə, hansısa dini düşüncəyə görə Qarabağı azad etməyib. Azərbaycan vətəndaşı olmağı ilə qürur və şərəf hiss duyduğuna görə bu döyüşdə iştirak edib".

Meyxanaçıların dini qəzəllər deməsinə və deputatın cavabına münasibət bildirən ilahiyyatçı Elşad Miri "Şərq"ə açıqlamasında qeyd edib ki, bu cür məsələlərdə hansısa meyxanaçı nəsə deyə bilər, lakin onun fikir və iddiaları gündəmi müəyyənləşdirməməlidir: "Amma cəmiyyətimizdə gündəm yaratmaq üçün bu kimi ifadələrlə formalaşırsa, biz də bunlara cavab vermək məcburiyyətində qalırıq. Fazil bəyin cavabının arxasındayam. Onun fikirləri ilə razıyam. Bəs digərlərinin səsi niyə çıxmır? Kaş Fazil bəyin apardığı bu təbliğat və maarifləndirməyə digər 124 deputat da qoşula. Bu, həqiqətən alqışlanmalı məsələdir".

**İlahiyyatçı müharibədə iştirak edənləri hüseynçi hesab edənlərə öz suallarını ünvanlayıb:** "Biz hər zaman Azərbaycanın multikultural cəmiyyət olduğunu, burada insanların bərabər yaşadığını deyirik. Bu şəxslər konkret olaraq bu döyüşçüləri hüseynçilərlə əlaqələndirirlər. O zaman belə bir sual verim: Bəs bu döyüşçülərin arasında əliçilər, həsənçilər, muhammadilər və yaxud Quran tərəfdarları yoxdurmu? Bəs Vətən müharibəsində iştirak edən yəhudi əsilli vətəndaşlarımız, şəhid olan xristian əqidədə olan döyüşçülərimiz, dinləri qəbul etməyən, özünü deist kimi təqdim edən şəhidlərimiz barədə nə deməliyik? Bu, tipik dar düşüncənin məhsuludur. Yəqin ki, onlar ağalarının xoşuna gəlmək üçün bu cür ifadələr işlədirlər. Təəssüflər".

**Çimnaz Şahlar**

# Rəisi-Paşinyan danışıqları prosesə mane ola bilməyəcək

Rusiya Zəngəzur dəhlizinə qarşı çıxan Tehrana razılaşmanı pozmağa imkan verməyəcək

**Ötən gün İran Prezidenti İbrahim Rəisi ilə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında telefon danışığı olub. Telefon danışığı zamanı tərəflər qarşılıqlı əlaqələri müzakirə ediblər. İbrahim Rəisi bildirib ki, iki ölkə arasında dərin tarixi əlaqələr mövcuddur. Tehran və İrəvan arasında davamlı iqtisadi əməkdaşlıq səviyyəsinin artırılması zəruridir:**

"Üçtərəfli atəşkəs bəyanatını imzalayan dövlətlərin onun müddəalarına sadiq qalması və qalan məsələlərin dialoq və diplomatik yolla həlli Qafqaz regionunda sülh və təhlükəsizliyin bərqərar olmasının ən yaxşı yoludur". Paşinyan telefon danışığı zamanı Azərbaycanla sərhəddə baş verən qarşıdurmalar barədə məlumat verib. Ermənistanın baş naziri Tehran-İrəvan əlaqələrinin inkişafından məmnunluğunu ifadə edib və ölkəsinin iki ölkə arasında yüklərin tranzitini asanlaşdırmağa, infrastruktur, o cümlədən yol və enerji sahələrində əməkdaşlığı artırmağa hazır olduğunu vurğulayıb.



**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Rəisi və Paşinyan arasında telefon söhbəti təkcə Ermənistanı "qırmızı xətti" elan edən Tehranın İrəvana "qardaşlıq zəngi" deyil.** Analitikə görə, bu zəng həm də son proseslər, xüsusilə Rusiyanın Mehri-Əkərək yolunda yeni postlar qurması fonunda diqqət çəkir: "İrəvan və Moskvanın rəsmi açıqlamalarında postların iki ölkə arasındakı müqaviləyə əsasən atıldığı deyilir. Rusiya tərəfi isə əlavə edir ki, "son dövrlər İrandan Ermənistana narkotik və digər qanunsuz daşıma cəhdlərinin artmasına" görə bu qərar verilib. Hətta "silah, qumbaratan və külli miqdarda döyüş sursatının aşkarlanması" faktından da bəhs edirlər. Əsaslandırmaq şübhəlidir, hadisələrin inkişafı da bu şübhələri artırır. Tehranda keçirilən Ərdoğan-Putin-Rəisi zirvəsində Yaxın Şərq əsas mövzu olsa da, üçtərəfli əməkdaşlığın Cənubi Qafqaz bölgəsində də davam etdirilməsi, xüsusilə "3+3" formatının inkişafı ilə bağlı məsələlər həll edilməli idi. Lakin İran Suriya məsələsində olduğu kimi, Zəngəzur dəhlizinin açılmasına qarşı da Xomneyinin saxta "min illik yol" iddiasına əsaslanan "separat" mövqe sərgilədi. Ərdoğan Tehrandan sonra Soçiyə - Putinlə görüşə getdi. Tərəflərin razılaşmaları Moskva və Ankaranın Tehransız hərəkət planının olması ehtimalını önə çıxardı".

**Ekspert vurğulayıb ki, bu iki görüşdən sonra Rusiya Mehri-Əkərək istiqamətində, Zəngəzur dəhlizinin keçəcəyi ərazidə əlavə postlar qurmağa başladı:** "Moskvanın bu addımı iki hədəfə hesablanıb. Birincisi, Zəngəzur dəhlizinə qarşı çıxan Tehrana razılaşmanı pozmağa imkan verməyəcəyi göstərir. Rus sərhədçilərin "İrandan gələn təhlükələrə" görə postlar qurması da bu mesajın verilməsinə hesablanıb. İkincisi, sərhədçilərini dəhlizin keçəcəyi istiqamətdə yerləşdirməklə nəzarəti gücləndirir. 10 noyabr razılaşmasının 9-cu bəndinə görə, Ermənistan Azərbaycana Naxçıvanla "maneəsiz keçid" verməli, həmin yolun təhlükəsizliyini Rusiya hərbçiləri təmin etməlidir. İstisna deyil ki, Rusiya Zəngəzur dəhlizinin razılaşmaya uyğun açılmasının logistikasını formalaşdırır. Paşinyana Xomneyinin Ərdoğana dediklərini xatırladan Rəisi də baş verənləri anlamaq, həm də "separat" mövqeyini gücləndirmək istəyir".

**İsmayıl Qocayev**



# Postmünaqişə mərhələsində Avropa İttifaqı-Azərbaycan münasibətləri:

## *Bakının təşəbbüsləri fonunda strateji tərəfdaşlığın perspektivləri*

**Cənubi Qafqaz ənənəvi olaraq geosiyasi dinamikanın yüksək olduğu regiondur. Son zamanlar isə qlobal miqyasda cərəyan edən geosiyasi, hərbi və iqtisadi proseslərin fövqündə bu region daha həssas məkana çevrilib. Burada ekspertlər kənardan olan təsirlər sırasında Rusiya-Ukrayna müharibəsinə və Avropada özünü göstərən siyasi-humanitar və enerji böhranına daha çox diqqət yetirirlər. Əslində, Avropada enerji böhranını Ukrayna hadisələri körükləyib.**

Və bunun siyasi mühitlə əlaqəsi çoxdur. Məsələn, bir sıra Avropa ölkələrində (Bolqarıstan, İtaliya və s.) müşahidə edilən siyasi böhran daha çox enerji böhranı ilə əlaqələndirilir. Təbii ki, bu cür mürəkkəb vəziyyətdə Avropa İttifaqı-Azərbaycan münasibətlərinin dinamikasına Cənubi Qafqazın geosiyasi mənzərəsi və geosiyasi proseslərin donorları olan iri dövlətləri bürümüş siyasi və sosial-iqtisadi böhranlar prizmasından nəzər salmaq maraqlı olardı. Biz bu məqalədə məsələnin məhz həmin aspektini analiz etməyə çalışırıq.





### Avropada enerji böhranı və Azərbaycanla əməkdaşlıq: yeni geosiyasi reallıqların fövqündə

Avrasiya regionunda enerji ehtiyatlarına nəzarət uğrunda mübarizənin güc komponentlərindən istifadə edilməklə getdikcə kəskinləşməsi, Avropa ölkələrinin enerji asılılığı probleminin daha ciddi xarakter alması və bunun nəticəsi olaraq, Cənubi Qafqazda geosiyasi proseslərin intensivləşməsi, Ermənistanın və ona havadarlıq edən bir sıra dövlətlərin qeyri-konstruktiv addımlarının fonunda Avropa İttifaqı-Azərbaycan münasibətlərinin taleyi ekspertlərin böyük marağına səbəb olmaqdadır. Onların qiymətləndirmələri fərqlidir. Lakin məsələnin mahiyyəti ondan ibarətdir ki, ekspertlər Avropa İttifaqı üçün Cənubi Qafqazda əsas tərəfdaşın (xüsusən enerji sahəsində) Azərbaycan olduğu fikrində yekdildirlər. Bunun geosiyasi və geoiqtisadi səbəblərini ekspertlər regionda hazırda mövcud olan geosiyasi dinamika kontekstində vurğulayırlar.

Xüsusilə Brüssel Azərbaycanın "qoca qitə"nin enerji təhlükəsizliyinin təminində oynaya biləcəyi rola yüksək qiymət verir. Avropa İttifaqının Bakıya səfər edən yüksək səviyyəli rəsmiləri apardıqları müzakirələrdə bu barədə açıq fikir bildirirlər. Onlar Ukrayna-Rusiya müharibəsinin meydana gətirdiyi enerji böhranından çıxış yolları axtardıqda Azərbaycan faktoruna ciddi önəm verirlər. Təsadüfi deyildir ki, Avropa İttifaqına üzv ölkələr qitə üçün əsas qaz istehsalçısı və ixracatçısı olan Azərbaycana yardım üçün müraciət ediblər.

Bütövlükdə enerji sahəsində əməkdaşlıq Avropa İttifaqı-Azərbaycan əlaqələrinin çox vacib hissəsini təşkil edir. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması isə fəal əməkdaşlığı yeni mərhələyə yüksəldir. Bu anlaşmada Azərbaycandan Avropa İttifaqına təchiz edilən təbii qazın həcminin ikiqat artırılması nəzərdə tutulur. Ümumilikdə isə bir neçə il ərzində ölkəmizdən Avropaya nəql olunacaq qazın həcmi 20 milyard kubmetrə çatdırılmalıdır.

Bunun fonunda Avropa İttifaqının Cənub Qaz Dəhlizinin genişləndirilməsi ilə bağlı üzərinə öhdəlik götürməsi çox əlamətdardır. Cənub Qaz Dəhlizi Azərbaycan qazını Avropaya çatdıran üç qaz kəmərindən biridir (Trans-Anadolu və Trans-Adriatik qaz kəmərləri ilə yanaşı). 2020-ci ildə istifadəyə verilən kompleks vasitəsilə 2021-ci ildə 8 milyard kubmetr təbii qaz Avropaya ötürülüb. 2022-ci ildə bu rəqəm 10 milyard kubmetri keçməlidir. Bununla bağlı Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen bəyan edib. Avropa Komissiyasının rəhbəri vurğulayıb: "Aİ daha etibarlı enerji təchizatçılarına müraciət edir. Bu gün mən Azərbaycanda yeni müqavilə imzalamaq üçün gəlmişəm. Məqsədimiz Azərbaycandan Aİ-yə qaz nəqlini iki dəfə artırmaqdır".

Ekspertlər onu da vurğulayırlar ki, ümumilikdə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın artıq 15 ilə yaxın tarixi var. Təcrübə göstərir ki, Gürcüstan və Türkiyə üzərindən keçməklə Avropaya çatdırılan Azərbaycan nefti və qazı həmin ərazidəki ölkələrin enerji təminatında böyük yer tutur. Bu nailiyyətlərə müasir texnologiyaların tətbiqi ilə xarakterizə olunan bərpaolunan enerji sahəsində əməkdaşlığı da əlavə etmək lazımdır. Proseslərin bur cür cərəyan etməsi Aİ-nin hazırda ölkəmizin əsas ticarət tərəfdaşı olması faktı fonunda tamamilə təbii görünür.

Tərəflərin enerji sahəsində yuxarıda vurğulanan əməkdaşlığı Rusiya-Ukrayna müharibəsinin yaratdığı enerji böhranı kontekstində xüsusi əhəmiyyət kəsb edir. Məsələ ondan ibarətdir ki, Ermənistanın təxribatçı davranışlarına baxmayaraq, Brüssel Azərbaycana enerji sahəsində perspektivli tərəfdaş kimi yanaşdığını açıq nümayiş etdirir. Rəsmi İrəvanın və onun havadarlarının pozucu fəaliyyətlərinə baxmayaraq, Aİ Azərbaycan faktoruna getdikcə daha çox önəm verir. Buna misal olaraq son aylar Bolqarıstanın Azərbaycandan alınacaq qazla bağlı qeyri-müəyyən mövqeyinə Brüsselin reaksiyasını göstərmək olar. Son informasiyalara görə, Bolqarıstanda hökumətin dəyişməsi ilə bu ölkə yenidən Azərbaycana qarşı arzu edilməyən mövqe tutmağa cəhd göstərməyə çalışır.

Qərbpərəst bolqar hökumətinin Azərbaycanla dialoqa üstünlük verməsinə baxmayaraq, onu əvəz edən və Moskvaya meyilli olduğu deyilən müvəqqəti hökumət bu müzakirələri dayandırıb. Aİ isə bunun fonunda Azərbaycanla daha geniş və dərin əməkdaşlıqda maraqlı olduğunu bəyan edib. Bunun konkret təsdiqi olaraq (yuxarıda vurğuladığımız kimi), Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin bu ilin 18 iyulunda Azərbaycana səfəri zamanı Prezident İlham Əliyevlə Bakıda keçirdiyi görüşdə ifadə etdiyi fikirləri, təklifləri və əldə olunan razılıqlar əsasında imzalanan sənədi göstərə bilərik.

Xanım Ursula Fon der Lyayenin Bakıya səfəri zamanı ekspertlərin tarixi sənəd adlandırdıqları Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Bu hadisənin geosiyasi əhəmiyyətini Azərbaycan Prezidenti Aİ-Azərbaycan münasibətlərinin dinamikası kontekstində çox dolğun, dəqiq və gözəl ifadə edib.

İlham Əliyev Avropa Komissiyasının rəhbəri ilə görüşündə bəyan edib: "Bu gün bizim geniş əhatəli və qarşılıqlı maraq doğuran məsələlərə aid çox yaxşı müzakirəmiz baş tutdu. Biz bu gün gündəliyimizdə dayanan bütün məsələləri əhatə etdik. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması mərasimi oldu. Enerji sahəsində apardığımız fəal əməkdaşlığın on beş ildən artıq tarixi var. Bugünkü Memorandum aramızda imzalanmış birinci sənəd deyil. Biz 2006-cı ildə Anlaşma Memorandumunu və 2011-ci ildə Cənub Qaz Dəhlizi ilə bağlı Birgə Bəyannaməni imzalamışıq. Bir sözlə, yaxşı tarixçəmiz və nailiyyətlərimiz var".

### Anlaşma Memorandumu və əlaqələrin yeni mərhələsi: "yol xəritəsi"nin bir sıra məqamları

Azərbaycanın dövlət başçısı burada üç geosiyasi və geoiqtisadi məqamı yığcam ifadə edib. Birincisi, imzalanan sənədin meydana gəlməsi təsadüfi deyil, əksinə, tərəflərin enerji sahəsində çoxillik əməkdaşlığının məntiqi geosiyasi, geoiqtisadi və diplomatik nəticəsidir.

İkincisi, Avropa İttifaqı Azərbaycanın etibarlı, konstruktiv və suveren siyasət yeridən müstəqil dövlət olduğunu qəbul edir və bu qənaətə uyğun mövqe tutmağa çalışır.

Üçüncüsü, bu sənədi imzalamaqla Brüssel Cənubi Qafqazda əsas tərəfdaşın Azərbaycan olduğunu bir daha təsbit etmiş olur.

Maraqlıdır ki, Azərbaycan Prezidenti İlham Əliyev və xanım Ursula Fon der Lyayenin sırasında enerji təhlükəsizliyi məsələləri ayrıca yer tutur. Bu baxımdan "Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində uzunmüddətli, proqnozlaşdırılan və çox etibarlı əməkdaşlıq təbii ki, böyük nailiyyətdir". Geosiyasi çaları olan və milli təhlükəsizliklə əlaqəyə malik bu proseslərdən İlham Əliyev strateji aspektdə əhəmiyyətə malik ümumi qənaətə gəlir. Azərbaycan rəhbəri ifadə edib: "Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaşlarımızın dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir".

Hesab edirik ki, sonuncu tezis olduqca yığcam şəkildə strateji xarakterli bir neçə geosiyasi məqamı bir-biri ilə qarşılıqlı əlaqədə əks etdirir. Konkret olaraq, İlham Əliyev xatırladır ki, indi Avropa İttifaqının da geniş bəhs etdiyi qarşılıqlı faydalı əməkdaşlıq prosesini Azərbaycan başlamış, yəni təşəbbüs rəsmi Bakıdan gəlmişdir (Əlbəttə ki, ulu öndər Heydər Əliyevin Azərbaycanın xarici siyasət konsepsiyasında prioritet istiqamətləri düzgün müəyyən etməsi sayəsində). Öncə, Aİ-nin buna reaksiyası elə də adekvat olmadı. Brüssel "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində Azərbaycan üzərində hökmranlığa can atdı. Lakin Prezident İlham Əliyevin qətiyyətli və suveren xarici siyasəti tədricən hər şeyi yoluna qoydu.

Məhz buna görədir ki, 2022-ci ilin iyulunda Avropa Komissiyasının Prezidenti Bakıda tərəflər arasında real strateji əməkdaşlıq kontekstində pozitiv fikirlər ifadə edib. Belə ki, xanım Ursula Fon der Lyayen deyib: "Avropa İttifaqı ... daha etibarlı və etimad doğuran tərəfdaşlara üz tutmaq qərarına gəldi və mən Azərbaycanı onların sırasında hesab etməkdən məmnunam. Həqiqətən, siz bizim üçün mühüm enerji tərəfdaşısınız. Siz təkcə təchizat təhlükəsizliyi sahəsində deyil, həmçinin iqlim neytrallığı sahəsində də hər zaman etibarlı olmusunuz. İndicə imzaladığımız Anlaşma Memorandumu bizim enerji tərəfdaşlığımızı daha da gücləndirir".

Bu fikirlərdən aydın olur ki, Brüssel Azərbaycanı həm mühüm ticarət tərəfdaşı, həm də etibarlı və etimad doğuran tərəfdaş kimi qəbul edir. Memoranduma bu prizmadan baxdıqda, Aİ-Azərbaycan münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçməkdə olduğu qənaətinə gələ bilərik. Bu isə bütün sferalarda - enerji sahəsində, ticarətin başqa sahələrində, logistika, nəqliyyat dəhlizlərinin işlənməsində, təhlükəsizliyin təminində, qlobal və regional layihələrin reallaşmasında özünü göstərə bilər.

Avropa Komissiyası Prezidentinin Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu ilə bağlı vacib saydığı üç məqamı vurğulamasını da məhz həmin aspektdə qiymətləndirməliyik. Xanım Ursula Fon der Lyayen deyib ki, birincisi, "Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artıracağıq"; ikincisi, "Memorandumdakı ikinci mühüm məqam bərpaolunan enerji ilə bağlıdır. Azərbaycan bərpaolunan enerji sahəsində nəhəng potensiala malikdir"; üçüncüsü, "bizim qaz sahəsindəki əməkdaşlığımız iqlimlə bağlı məsuliyyətimizlə uzlaşmalıdır".

Ən əhəmiyyətlisi ondan ibarətdir ki, Avropa İttifaqı bu məqamlara geniş strateji kontekstdə baxır və onlar arasında sıx bağlılığı görür. Bu məqamlar tərəflər arasında

yen sonuncu tezisin qlobal miqyasda geosiyasi kontekstini də ifadə ediblər.

Azərbaycanın dövlət başçısı görüş zamanı çıxışında vurğulayıb ki, tərəflər əməkdaşlığa (15 il öncə) neft hasilatı ilə başladı və sonra qaz hasilatına keçdi. Bunun üçün öncə Qara dəniz və Aralıq dənizini birləşdirən neft kəməri çəkildi. Daha sonra uzunluğu 3500 kilometr olan "Cənub Qaz Dəhlizi boru kəməri sistemlərini inteqrasiya etdi və bununla təbii qazımız Avropa qitəsinə çatdırılır".

Buradan Azərbaycan rəhbəri geosiyasi əhəmiyyətli bir tezis irəli sürüb. Onun məzmunu ondan ibarətdir ki, vurğulanan əməkdaşlığın hər iki tərəfə faydaları böyükdür. Onların uzunmüddətli faydalı əlaqələrin ümumi məntiqinə uyğun təsəvvür edilir. Bu fikri Avropa Komissiyasının rəhbərinin özünün ifadə etdiyi aşağıdakı tezis təsdiq edir. Xanım Ursula Fon der Lyayen Prezident İlham Əliyevlə görüşü zamanı bəyan edib: "Prezident Əliyev və mən enerjidən əlavə, əlaqələrimizin və əməkdaşlığımızın bütün aspektlərini müzakirə etdik. Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Şurasının sabah Brüsseldə iclası baş tutacaq və orada ikitərəfli əməkdaşlığımızın inkişafı müzakirə ediləcək. Biz hazırda yeni ikitərəfli saziş üzərində çalışırıq və ümid edirik ki, iş tezliklə yekunlaşacaq".

Onu da vurğulamaq vacibdir ki, Ursula Fon der Lyayen Azərbaycan dövlət başçısı ilə görüşündə Avropa İttifaqının Azərbaycan siyasətinin strategiyasını açıqlayıb. Onun təməlində iki tezisin durduğu sözlərindən aydın olur. Birincisi, bu, Aİ-nin "qlobal qapı strategiyasının başlıca missiyasıdır və həmçinin "Şərq tərəfdaşlığı"nın mahiyyətidir. Avropa İttifaqı Azərbaycanla birgə çalışaraq Mərkəzi Asiya və onun hüdudlarından kənarda da əlaqələr qurmaq arzusundadır"; ikincisi, Aİ Cənubi Qafqaz regionu ilə sıx bağlıdır, Brüssel Azərbaycanla tərəfdaşlığa dəyər verir və "bu tərəfdaşlıq zaman keçdikcə ardıcıl şəkildə daha da inkişaf edəcək və dərinləşəcək".

Bu mövqe iyulun 19-da Brüsseldə Azərbaycan Respublikasının Xarici işlər naziri Ceyhun Bayramovun və Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi Cozep Borrelin həmsədrliyi ilə Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 18-ci iclasında və həmin gün Bakıda Prezident İlham Əliyevin Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisteri qəbul etdiyi zaman aparılan müzakirələrdə bir daha öz təsdiqini tapıb. Hər iki müzakirələrdə Aİ ilə Azərbaycan arasında əməkdaşlığın strateji xarakteri, davamlılığı, qarşılıqlı faydalılığı və sülhə xidmət etməsi xüsusi qeyd edilib.

### Gələcəyə baxış: geosiyasi proqnozlar kontekstində

Bəlkə də tarixin sınağıdır ki, bu müzakirələrdən iki həftə sonra Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti təxribata Avropa İttifaqı münasibətini bildirməyə məcbur oldu. Azərbaycan avqustun 3-də ermənilərin hərbi təxribatlarına cavab olaraq birgünlük "Qisas" əməliyyatı keçirdi. Əməliyyatda Azərbaycan Ordusu düşmənə ciddi zərbələr vurdu və terrorçu erməni hərbi birləşmələri böyük tələfat verdi. Vasitəçilərin çoxsaylı xahişindən sonra Bakı əməliyyatı dayandırdı. Ermənistana və onun havadarlarına bir daha aydın oldu ki, Azərbaycanla barış və sülh, ilk növbədə, ermənilərin özləri üçün vacibdir, əks halda, dövlətçilikləri tədricən tamamilə məhv ola bilər.

Məhz hadisələrin bu cür gedişinə Brüsselin necə reaksiya verəcəyi maraqlı idi. Bu baxımdan avqustun 5-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycan Prezidenti İlham Əliyevə zəng etməsinə ekspert dairələri ciddi maraq göstərdilər. Şarl Mişel regionda yaranmış gərginliklə bağlı narahatlığını bildirərək, Brüssel sülh gündəliyinə uyğun olaraq, Avropa İttifaqının Cənubi Qafqazda "davamlı sülh və sabitliyin təmin olunması istiqamətində səylərini davam etdirəcəyini" vurğuladı.

Bu münasibətdən geosiyasi mənası olan qənaətlər əldə edə bilərik. Birincisi, bütövlükdə Şarl Mişelin telefon zəngi müsbət hadisədir. Çünki bununla Aİ Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsində maraqlı olduğunu nümayiş etdirir, bunun hüquqi əsasını da aydın təqdim edir: Brüssel sülh gündəliyi!

İkincisi, postmünaqişə mərhələsində Brüssel Cənubi Qafqazda daha aktiv rol oynamaq kursunu bir daha təsdiqləmiş oldu.

Üçüncüsü, Avropa İttifaqı bu prosesdə Azərbaycanın mövqeyinə böyük önəm verdiyini və Bakı ilə əməkdaşlığın dəyərini anladığını göstərmiş oldu. Çünki münaqişə mərhələsindən fərqli olaraq, Azərbaycanla ittihamedici ritorika ilə deyil, bərabərhüquqlu tərəfdaş statusunda danışıqlar aparıldı.

Dördüncüsü, qeyd etmək yerinə düşərdi ki, bütün deyilənlərə rəğmən, Avropa İttifaqı hələ də proseslərin arxasınca gedir və tam obyektiv mövqe göstərə bilmir. Çünki Brüssel ilk olaraq Ermənistandan qanunsuz hərbi birləşmələrini Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarmasını tələb etməli idi. Bu həm 10 noyabr sazişinə, həm də bütövlükdə beynəlxalq konvensiyalara uyğun addım olardı. Eyni zamanda, Avropa İttifaqı Azərbaycanla əməkdaşlığı genişləndirirsə, ilk növbədə, Cənubi Qafqazda sabitliyin pozulmasını önləməyi də bacarmalıdır.

Bu baxımdan Aİ-nin Zəngəzur dəhlizinin açılmasına daha effektli dəstək verməsi lazımdır. Həmin məqam sözdə deyil, konkret addımlarda, diplomatik fəaliyyətdə özünü aydın göstərməlidir. Lakin təəssüf ki, Aİ bu dəfə də Cənubi Qafqazda sabitliyin pozulmasını gözlədi. Hadisədən sonra isə Azərbaycanın üstünlüyü və haqlı olması hər kəsə aydın idi. Brüssel bu vəziyyətdə kənarda qala bilməzdi.

Onu deyək ki, bunlar kimisə ittiham etmək üçün deyil. Əksinə, Avropada bir sıra ekspertlər də eyni fikri ifadə edirlər. Onlar Avropa İttifaqının Cənubi Qafqazda təşəbbüskar olmasının, sistemli olaraq sülhə, barışa, əməkdaşlığa və inkişafa xidmət edən proyektlər həyata keçirməsinin zəruriliyini vurğulayırlar.

Bununla bağlı ekspertlər Borut Qrqiç və Bernhard Knoll-Tüdorun hələ 2020-ci ilin dekabrında (İkinci Qarabağ - Vətən müharibəsindən sonra) gəldikləri bir qənaət maraqlıdır. Onlar "Euractiv" portalında dərc olunan məqalədə belə qənaətə gəlmişdilər: "...söhbət Aİ-nin postmüharibə dövründəki rolundan gedirsə, ideya əksikliyi yoxdur. Avropa İttifaqı bununla tərəflər arasında inamı gücləndirməyə çalışmalıdır. Lakin o, bugünədək Cənubi Qafqazda aparıcı rola iddia etməyib. Bu isə qurumun regiondakı fəaliyyətini məhdudlaşdıran amillərdən biridir. Görünən odur ki, Aİ-nin Cənubi Qafqazla bağlı strategiyasında çatışmazlıqlar var. Əslində o, regionu təkcə liberal dəyərlərin deyil, həm də iqtisadi və mədəni inkişaf üçün fürsət kimi görməlidir".

Bütün bunlardan ümumi geosiyasi nəticələr çıxarmaq mümkündür. Hər şeydən öncə, aydın olur ki, Avropa İttifaqı Cənubi Qafqaz siyasətində növbəti düzəlişlər edib və indiki mərhələdə Azərbaycanla münasibətlərə daha çox önəm verməyə başlayıb. Bunun əsas səbəbi Brüsselin hadisələri analiz edərək həqiqətin Azərbaycan tərəfdə olmasını görməsidir. Eyni zamanda, bütün çətinliklərə baxmayaraq, Avropa İttifaqı Azərbaycan rəhbərliyinin regional və qlobal sülh, sabitlik, əməkdaşlıq kursundan zərrə qədər də dönmədiyinə əmindir. Belə bir vəziyyətdə Aİ Azərbaycanla bütün sferalarda, ilk növbədə, enerji təhlükəsizliyinin təminində əməkdaşlığı, strateji aspekt də daxil olmaqla, daha da inkişaf etdirməyə məhkumdur. Bu, Rusiya-Ukrayna müharibəsinin Avropanın enerji ilə təmin olunmasına verdiyi zərərlər fonunda daha inandırıcı görünür.

Nəhayət, son illərdə qlobal miqyasda cərəyan edən geosiyasi proseslərin məntiqi avropalı siyasətçilərə hadisələrə öncəki mərhələlərdən fərqli bucaq altında baxmağın lazım gəldiyini göstərib. Aİ anlayır ki, nəinki Rusiya və Çin, hətta müttəfiqi ABŞ belə onun geosiyasi maraqlarını təmin etməyə həvəsli deyildir. Əgər Rusiya və Çin qarşı düşərgədədirsə, Amerika eyni düşərgədə Avropanı özündən asılı vəziyyətə salmağa çalışır.

Bu məqam Aİ rəhbərliyinə müstəqil xarici siyasət yeritmək və öz təhlükəsizliyini daxili imkanlar hesabına qorumaq üçün yeni strategiya hazırlayıb həyata keçirməyi diktə edir, bu kontekstdə Cənubi Qafqaz siyasətində də düzəlişlərin lazımlığını qəbul edir. Proseslərin təhlili göstərir ki, bu regionda müstəqil siyasət yeridən, bütün istiqamətlərdə inkişaf edən, güclü hərbi sistemə malik, dinamik inkişafda olan yeganə dövlət Azərbaycandır. Bunu təsdiq edəcək faktlar kifayət qədərdir, onlar mediada geniş təqdim olunub və həmin proses davam edir.

Deməli, Avropa İttifaqı Azərbaycanla əlaqələrə yeni fəlsəfə prizmasından baxmalıdır və bunun əlamətləri getdikcə daha çox özünü göstərir. Bununla yanaşı, Brüsselin daha obyektiv və ədalətli mövqe tutmasının zəruriliyini də bir kənara qoya bilmərik. Biz bütün çətinliklərə baxmayaraq, Avropa İttifaqı-Azərbaycan münasibətlərinin perspektivinə inanırıq!

**Kamal Adıgözəlov**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi;**

# Özəlləşmə artıq ciddi nəzarətdədir

## Dövlət müəssisələrinin, iqtisadi obyektlərin özəlləşdirilmə prosesi bundan sonra şəffaf aparılacaq

**Ölkə iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi prioritet vəzifələrindəndir və qəbul edilmiş məqsədli dövlət proqramları çərçivəsində uğurla yerinə yetirilməkdədir. Hazırda bu sahədəki siyasət sahibkarlığa dövlət himayəsinin sistemli həyata keçirilməsinin, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsinin təmin edilməsinə yönəldilib.**

Bu strateji xəttin reallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Sahibkarlığın təşkili və həyata keçirilməsi üçün ən vacib amillər bu sahibkarlıq növü ilə məşğul olmaq istəyən sahibkarın mövcudluğu, müvafiq istehsal fondlarının və işçi qüvvəsinin olmasıdır. Ancaq bunlardan əlavə sahibkarlığın təşkili, müvəffəqiyyətli fəaliyyəti bir sıra başqa amillərdən də asılıdır. Sahibkar mütləq bu amilləri nəzərə almalıdır. Ümumi şəkildə bu amillər müəssisədaxili və müəssisəxarici amillərə ayrılır. Müəssisədaxili amillər sahibkarlıq bilavasitə təsirinə məruz qala bilən və onun tərəfindən idarə oluna bilən amillərdir. Müəssisədaxili amillərin idarə edilməsi nisbi xarakter daşıyır. Sahibkar bu amillərin formalaşması üsullarını və ya onlardan istifadə edilməsi üçün mövcud variantlardan birini seçmək imkanına malik olur. İqtisadiyyatın inkişafı ilə bağlı mühüm proqramlardan biri özəlləşdirmədir. Özəlləşdirmə prosesinin müasir metodlar, yeni yanaşmalar tətbiq edilməklə reallaşdırılması olduqca vacib məsələdir. Daha sadə və innovativ olan özəlləşmə üsulları prosesə qoşulan investorların sayının artmasına, dövlət müəssisələrinin yenidən fəaliyyətinin təmin edilməsinə imkan verir. Özəlləşdirmə prosesində operativliyi və şəffaflığı təmin etmək üçün həyata keçirilən tədbirlərdən biri də hərraclardır. Dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı keçirilən hərraclar həm investorlar, həm də sahibkarlıq fəaliyyətinə yeni başlayanlar üçün əlverişlidir. Hərraclara çıxarılan dövlət əmlakları müxtəlif çeşidli olmaqla sahibkarların seçim imkanını artırır. Prosesdə səhmdar cəmiyyətlərin səhm paketləri, kiçik dövlət müəssisələri, istifadəsiz qeyri-yaşayış sahəsi potensial iştirakçılar qarşısında heç bir əlavə şərt qoyulmadan, yalnız dövlət büdcəsinə ödəniş müqabilində özəlləşdirilir. Müəssisələr sənaye, tikinti, xidmət, nəqliyyat, turizm və digər iqtisadi sahələri əhatə edir. Belə imkanlar hərraclara maraq yaradır. Bu isə öz növbəsində ölkədəki iqtisadi aktivliyə müsbət təsirini göstərir. Özəlləşdirmə hərracları hər kəsin iştirakı üçün açıqdır, yəni istənilən şəxs hərraca iştirakçı qismində qatıla bilər. Dövlət əmlakına sifariş verməyən şəxslər də ziyarətçi olaraq canlı izləyib, hərracın gedişatını müşahidə edə bilərlər. Burada şəffaflıq tam olaraq təmin olunur. Prosedurun sadə olması da investorların marağını cəlb edən əsas üstünlüklərdən biridir. Yeni iş yerlərinin açılması, sosial-iqtisadi inkişafın daha da sürətləndirilməsi məqsədilə iri dövlət müəssisələrinin investisiya müsabiqələri vasitəsilə özəlləşdirilməsinə daha çox diqqət yetirilir.

İnvestisiya müsabiqəsi vasitəsilə paytaxt və regionlarda yerləşən iqtisadiyyatın ayrı-ayrı sahələrinə aid müəssisələr özəlləşdirilir, iri investisiyalar cəlb edilir. Özəlləşdirilmiş müəssisələrdə rəqabətqabiliyyətli malların istehsalı üçün imkanlar yaranır. Hərraclardan fərqli olaraq investisiya müsabiqəsində bir sıra şərtlərə əməl etmək tələb olunur. İddiaçılar qarşısında qoyulan şərtlərdən başlıcası müəssisəyə investisiya qoyuluşuna dair təkliflərin verilməsi, iş yerlərinin bərpası və yeni iş yerlərinin açılması, istehsal prosesinə müasir texnologiyaların tətbiqi, istehsal olunan məhsulun çeşidinin genişləndirilməsi, yerli xammaldan istifadə olunması, işçilərin sosial təminatı kimi məsələlərin həllidir.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən avqustun 30-da hərrac keçiriləcək. Nazirlikdən verilən məlumata görə, hərraca ümumilikdə 55 dövlət əmlakı çıxarılıb. Bunlardan 6-sı səhmdar cəmiyyəti, 12-si kiçik dövlət müəssisəsi və obyekti, 1-i yarımçıq tikili, 36-sı isə nəqliyyat vasitəsidir. Hərracda iştirak etmək istəyən şəxslər sənaye, quşçuluq və s. sahələrə aid səhmdar cəmiyyətlərin səhm paketlərini özəlləşdirə bilərlər. Belə müəssisələrə "Biləsuvar Broyler", "Gəncə Quşçuluq" və digər səhmdar cəmiyyətləri aiddir. Səhmdar cəmiyyətlərin nizamnamə kapitalı 85 min 986 manatla 1 milyon 522 min 110 manat arasında dəyişir. Bu kateqoriyaya aid edilənlər arasında səhmləri özəlləşdirməyə çıxarılan və ilkin start qiyməti ən çox olan müəssisə "Bakı Dəzgahqayırma" Açıq Səhmdar Cəmiyyətidir. Adı çəkilən müəssisənin səhmlərinin 45 faizi 679 min 574 manata təklif olunur. Hərraca çıxarılan nəqliyyat vasitələri müxtəlif markalıdır. Özəlləşdiriləcək avtomobillər arasında Rusiya və Avropa istehsalı olan maşınlar üstünlük təşkil edir. Nəqliyyat vasitələrinin istehsal tarixi 1981-2013-cü illər arasında dəyişir.

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə deyib ki, Azərbaycanda özəlləşdirmə prosesi xeyli yubandı və müəyyən problemlərlə yadda qaldı. Ekspertin sözlərinə görə, İqtisadiyyat Nazirliyi zamanında təftiş aparsaydı, özəlləşdirmə prosesini əlverişli şəkildə yekunlaşdırmaq olardı:**



"Büdcəyə yük olan bütün dövlət müəssisələrindən, obyektlərindən qurtulmaq lazım idi. Onların özəlləşdirilməsi həyata keçirilsəydi, həm büdcəyə əlavə gəlir daxil olardı, həm də kiçik və orta sahibkarlıq inkişaf edərdi. Özəlləşdirilən obyektləri istehsala, xidmətə başlayara, yeni iş yerləri açılardı. İqtisadi müəssisələrin özəlləşməsi sahibkarlığın inkişafına güclü təkandır. Amma əsas odur ki, proses şəffaf şəkildə aparılsın. MDB ərazisində uzun zaman aparılmış özəlləşdirmə proqramlarının hamısı makroiqtisadiyyata qənim kəsilmiş siyasətə əsaslanırdı. Çünki proses başdan-ayağa qeyri-şəffaf həyata keçirilirdi. Postsovet ölkələrində birdən-birə heç bir biznes fəaliyyəti olmayan milyonçular peyda olmuşdu. Bunların səbəbi dövlət müəssisələrinin dəyər-dəyməzinə, kortəbii surətdə özəlləşdirilməsi və inhisarçılıq idi. Nəticədə özəlləşdirmə bizə xeyir əvəzinə ziyan vurmuş oldu. Ancaq hazırda ölkə rəhbərliyi məsələni ciddi şəkildə nəzarətə götürüb. İqtisadiyyat Nazirliyinin də fəaliyyətində özəlləşdirmə prosesinə diqqət yetirilir. Hesab edirəm ki, dövlət müəssisələrinin, iqtisadi obyektlərin özəlləşdirilmə prosesi bundan sonra şəffaf aparılacaq və öz müsbət nəticəsini verəcək. Çünki proses rəhbərliyin nəzarəti altındadır".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# İnternetin də qiyməti qaldırıldı

## Osman Gündüz: "Dövlət operatorlarının təklif etdiyi yüksək sürət üçün olan qiymətlər hətta bəzi özəl provayderdən də bahadır"



## "Məhdud seçim imkanı verən qiymət siyasəti doğru yanaşma deyil"

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məxsus "Aztelekom" və "Bakı Telefon Rabitəsi" MMC-lər GPON texnologiyasının tətbiqi istiqamətində telekommunikasiya xidmətlərinin tarifində dəyişiklik edib. Vətəndaşlara xəbərdarlıq etmədən onlara satılan internetin qiymətini bahalaşdırıb.**

Əhalidən xəbərsiz belə bir addımın atılması ictimaiyyət nümayəndələri arasında çox ciddi narazılığa səbəb olub.

"Bakı Telefon Rabitəsi" MMC ictimaiyyətlə əlaqələr üzrə baş mütəxəssis Alidə Mustafayevanın sözlərinə görə, istehlakçıların yüksək internet sürətinə artan tələbatı və texnoloji tələblər nəzərə alınaraq 4 mbit/saniyə və 10 mbit/s tarifləri ləğv edilərək abunəçilərin daha sürətli internetə keçidi təmin edilib.

Alidə Mustafayeva bildirib ki, əvvəl 4 mbit/s internet tarifinin aylıq abunə haqqı 10 manat təşkil edirdisə, dəyişiklikdən sonra 15 mbit/s internet tarifinin aylıq ödənişi 15 manat olub. Digər 10 mbit/s internet tarifinin də aylıq abunə haqqı 12,5 manat təşkil edirdisə, sözügedən tarif dəyişikliyi ilə 30 mbit/s internet paketinin aylıq abunə haqqı 18 manat olub.

Abunəçilərə əvvəlcədən xəbərdarlıq edilmədən internetin qiymətinin artırılması məsələsinə gəldikdə isə qurum rəsmisi qeyd edib ki, "Bakı Telefon Rabitəsi" MMC tariflərdə edilən bu dəyişikliklə bağlı bir ay əvvəldən qurumun internet saytında, sosial şəbəkə hesablarında bu barədə məlumatlar paylaşılıb.

**Məsələ ilə bağlı millət vəkili Fazil Mustafa Bakupost.az-a açıqlamasında bunun yanlış olduğunu bildirib. F.Mustafa qeyd edib ki, bu qurumlar fürsət düşən kimi vətəndaşlardan pul qoparmağa çalışır:** "Onların vətəndaşa xidmət anlayışı yoxdur. Heç bir normal xidmət göstərmədən insanların pulunu mənimsəyirlər. Vətəndaş onlar üçün pul qazanmaq mənbəyi olduğuna görə, xəbərdarlıq etməyi də özlərinə çox görürlər. Hələ az qaldırıblar, ürəkləri istəsə, 3-5 dəfə də qiyməti qaldıra bilərlər. Çünki onları vətəndaş düşündürmür". İnternetin qiymətinin artırılmasının soyğunçuluqdan başqa bir şey olmadığını vurğulayan millət vəkili deyib ki, bu həm də cinayətdir: "Başqa adı yoxdur. "Aztelekom" və yaxud başqa provayder ilə mülki müqavilə bağlanılır. 10 manat ödəyirəm ki, mənə bu ölçüdə internet verəsiniz deyə müqavilədə qeyd olunur. Bu müqavilə xəbərdarlıq edilmədən pozulub. Ona görə də vətəndaşlar ayrı-ayrılıqda məhkəməyə müraciət etməlidir. Kütləvi şəkildə məhkəməyə müraciət etsələr, heç olmasa, bu soyğunçuluğun qabağını almaq olar".

**İKT mütəxəssisi, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz isə hesab edir ki, adıçəkilən dövlət operatorlarının şəbəkəni modernləşdirməsi, fiber infrastrukturun yenilənməsi, infrastruktura yeni investisiyalar yatırması və nəticə olaraq yüksək sürətlər təqdim etməsi çox təqdirəlayiqdir:** "Amma birdən-birə hamı üçün yüksək sürətlər təklif etmək və buna uyğun da əvvəlki aşağı sürətə uyğun qiymətdən xeyli yüksək ödəniş tələb etmək, düşünürəm ki, doğru yanaşma deyil.

Heç bir investisiya yatırımı, böyük sürətlərə ehtiyacı olmayan məhdud bir təbəqəni yüksək ödənişlə yüksək də sürət əldə etməyə məcbur edə bilməz. Bu, doğru olmazdı. Xüsusən də bazarda hökmran mövqe tutan, dövlətə məxsus operatorlar üçün bu, yolverilməzdir. Düşünürəm ki, indiki şəraitdə, internetə əlçatanlığın insanların əsas fundamental hüquqlarından biri hesab olunduğu bir vaxtda, yüksək sürətə ehtiyacı olmayanlar üçün, əvvəlki ödəniş səviyyəsində, təxminən 10-12 manat civarında bəlli bir internet sürəti təklif oluna bilərdi.

Əminəm ki, xeyli sayda GPON istifadəçiləri daha böyük sürət seçiminə üstünlük verəcəklər. Bir daha vurğulamaq istərdim ki, adı çəkilən dövlət operatorlarının son zamanlar infrastrukturun yenilənməsi istiqamətində həyata keçirdikləri müsbət addımlara rəğmən məhdud seçim imkanı verən qiymət siyasəti doğru yanaşma deyil".

**O.Gündüzün sözlərinə görə, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi hələlik bu məsələyə müdaxilə etməyib. Qiyməti operatorlar qaldırıb:** "Bunun özü də doğru bir yanaşma deyil. Nazirlik hazırda həm də tənzimləyicidir. Təəssüf ki, hələlik bu funksiyanı yerinə yetirməli olan, Prezident fərmanı əsasında yaradılan İKT Dövlət Agentliyi də formalaşmayıb. Nizamnaməsi hələ də yoxdur, rəhbərliyi də həmçinin, tabeliyindəki dövlət operatorlarının qiymət siyasətinə müdaxilə etməlidir.

Qısa bir araşdırma ilə görmək olar ki, dövlət operatorlarının təklif etdiyi yüksək sürət üçün olan qiymətlər hətta bəzi özəl provayderdən də bahadır. Hansı ki normalda bu tərsinə olmalıdır. Bu məsələni, nazirlik və operatorlarla birlikdə İctimai Şurada da müzakirə etmək faydalı olardı".

**Şəymən**

# AQTA məsələnin üzərinə getmir

## Əksər marketlərdə gecələr soyuducular söndürülür

**Göygöldə zəhərlənən dörd yeniyetmə müalicə üçün Bakıya gətirilib.**

**Onlar Kliniki Tibbi Mərkəzin Toksikologiya Şöbəsinə yerləşdiriliblər. Vəziyyətləri stabildir, həyati təhlükələri yoxdur.**

Qeyd edək ki, hadisə Göygölün Heydər Əliyev prospektində yerləşən evlərin birində qeydə alınıb. 2010-cu il təvəllüdlü A.Məmmədova, onun həmyaşıdları M.Hacıyeva, Ş.Rüstəmova və K.Hacıyeva zəhərlənmə diaqnozu ilə xəstəxanaya yerləşdiriliblər. Göygöl Mərkəzi Rayon Xəstəxanasına daxil olanda yeniyetmələrin vəziyyətləri ağır olub.



Mütəxəssislərin sözlərinə görə, bütün qidalar zəhərlənmə potensialına sahibdir, eyni zamanda toyuq, mal əti və yumurta zəhərlənməyə səbəb olan yüksək riskli qidalardır. Xüsusən də, yeməyin ikinci dəfə qızdırılması qidanın keyfiyyətini pisləşdirə və bakteriyaların artmasına səbəb ola bilər.



Terapevt Vüsalə Vəliyevanın sözlərinə görə, evlərdə hazırlanan yeməklər artıq qaldığı zaman əksər hallarda alüminium qablarda saxlanması və soyuducuya qoyulmaması səbəbindən keyfiyyətini itirir və nəticə etibarı ilə toksinlərin inkişafına şərait yaradır: "Üstəlik, qızardılmış yeməyin təkrar qızdırılması zamanı yağda yaranan zəhərli maddələr də zəhərlənmələrə səbəb olur. Bakteriyaların yaşaması üçün nəmə ehtiyacı var və istifadə edilən qidaların hamısında lazım olduğu qədər nəm var. Bu da bakteriyaların çoxalması üçün münbit şərait yaradır. Soyuducuda saxlanılan yemək yeyildiyi qədər qızdırılmalıdır. Bişirildikdən sonra uzun müddət saxlanması lazım olan yeməklər dondurucuda saxlanıla bilər. Ancaq əridildikdən dərhal sonra qızdırılıb yeyilməlidir.

Bakteriyaların istehsalı yeməyin otaq temperaturunda saxlandığı hissədə başlayır, əriyənə qədər hava ilə təmasda olur. Bu səbəblə əriməsi üçün soyuducu istifadə edilməli və ya mikrodalğanın əritmə xüsusiyyətindən istifadə edilməlidir. Hazırlıq və ya bişirilmə prosesində qida başqa bir qaynaqdan gələn zərərli bakteriyalara yoluxa bilir. Bu bakteriyalar quruluşundan asılı olaraq bişiriləndə ölürlər. Yoluxmanın qarşısını almaq üçün bişmiş yeməkləri soyuducuda bağlı halda, xüsusilə qiymə, çiy ət və toyuq kimi məhsullardan ayrı saxlamaq lazımdır.

Elə yeməklər var ki, bişirilən kimi yeyilməlidir, saxlamaq olmaz. Çünki ikinci dəfə qızdırıldıqda zəhərlənmə ehtimalı çox yüksək olur. İkinci dəfə qızdırıldıqda və yedikdə zəhərlənmə ehtimalı olan qidalar: ispanaq, göbələk, yumurta, toyuq, kərəviz, çuğundur, kartof, düyüdür".

*Həkim tövsiyə edir ki, açıq yerlərdə satılan yeməkləri yeməmək, təmiz su içmək, əlin gigiyenasına xüsusi diqqət yetirmək başlıca qorunma amillərindən sayılır:* "Zəhərlənən şəxslərdə yüksək hərarət, qarın boşluğunda kəskin ağrılar, ishal, qusma, əzələ ağrıları, halsızlıq halları özünü göstərir. Qida zəhərlənmələri ağır nəticələr verə bilər. Zəhərlənən şəxsin mədəsindəki qida qalıqlarının xaric olunmasına, onun qusmasına çalışmaq lazımdır. Bunun üçün çoxlu maye qəbul etdirmək, ilk yardımlardan sonra xəstəni həkim yanına çatdırmaq lazımdır. Əks halda, xəstənin vəziyyəti ağırlaşa bilər".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə hesab edir ki, istehsal, satış, o cümlədən də xidmət obyektlərinin çoxunda heç bir normativə riayət edilməməsi zəhərlənmələrin sayının artmasına səbəb olur:** "Restoranlar, kafelər, şadlıq evləri, bir gündən qalmış qidaları saxlayıb, o biri növbələrə ötürürlər. Gecələr o cür müəssisələr soyuducuları söndürürlər. Böyük marketlərdə də səhər gedirsən ki, pis qoxu gəlir. O deməkdir ki, gecələr soyuducuları söndürürlər. Mən dəfələrlə məsələ qaldırmışam ki, heç bir təmənna olmadan gəlin dükanlarda soyuducuların hansı rejimdə işlədiyini yoxlayaq. Lakin AQTA məsələnin üzərinə getməyib. Bu vəziyyətdə, ictimai nəzarətin zəif olduğu şəraitdə, istehlakçıların da diqqət etmədiyi bir şəraitdə zəhərlənmələr əlbəttə artmalıdır".

## **Eyyub Hüseynov:** "Mən dəfələrlə məsələ qaldırmışam ki, heç bir təmənna olmadan gəlin dükanlarda soyuducuların hansı rejimdə işlədiyini yoxlayaq"

**AİB sədri deyir ki, emal sənayesi məhsullarından başqa, ən çox zəhərlənmə qapırz və çiyələkdən baş verir:** "Bu məhsullara həddən artıq güclü dərmanlar vurulur ki, bu da zəhərlənməyə səbəb olur. Ona görə də istehlakçılar mümkün qədər bu məhsulları alarkən ehtiyatlı olsunlar, yalnız təbii sortları, təbii yetişmə vaxtında alıb yesinlər və dadında, rəngində ciddi fərq görərlərsə onu yeməkdən imtina etsinlər". E.Hüseynov əhaliyə şübhələndikləri məhsulu istehlak etməməyi tövsiyə edib.

**Şəymən Bayramova**

# Otel baha, yemək baha...

## Yoxsul ailələr istirahət etmək hüququndan məhrumdur

**Bu gün Azərbaycanda fəaliyyət göstərən otellərdə qiymətlər xidmət səviyyəsindən asılı olmayaraq kifayət qədər bahadır. Mövcud qiymətlər də ölkə vətəndaşının cibinə uyğun deyil.**

Zaman-zaman mütəxəssislər ölkəmizdəki otel qiymətlərinin bazar tərəfindən deyil, müxtəlif orqanların təsiri nəticəsində formalaşdığını vurğulayırlar.

**İqtisadçı Rauf Qarayevin "Şərq"ə açıqlamasına görə, qiymətlərin yüksək olmasının səbəbi otellərin düzgün qiymət siyasəti aparmamasıdır.** Otellər bir çox hallarda qiymətləri göstərdikləri xidmət səviyyəsinə uyğun deyil, öz istədikləri kimi təyin edirlər. Bundan başqa bu sektorda rəqabətin zəif olması da qiymətlərə öz təsirini göstərir. Əgər xarici ölkələrdə otellər turizm mövsümü ilə əlaqədar endirimlər etməklə daha çox turist cəlb etməyə nail olmaq istəyirlərsə, Bakıda əksinə, mövsümlə əlaqədar qiymətlər yüksəlir. Bu həm otel biznesində rəqabətin olmaması, həm də onların sayının az olması ilə əlaqədardır. Bu şərtlər otellərə öz şərtlərini müştərilərə diktə etməyə imkan verir.

İqtisadçının sözlərinə görə, bizdə ucuz otelçilik konsepsiyası hələ oturuşmayıb. Çünki bizdə bu sahədə siyasət doğru deyil və əsas oyunçu dövlətdir: "Böyük otellərin tikintisində dövlət investisiya qoyur. Ucuz otelçiliyin inkişafı dövlətin təşviqindən - aşağı faizli kreditlərdən asılıdır. Bizdə isə bu yoxdur. Otellərin qiymətləri bir mövsümün üzərinə yıxmaqla öz qazanclarını təmin etmək istəyi də qiymətlərin qalxmasına səbəb olan amillərdəndir. Yəni otellər yalnız yayda fəaliyyət göstərib, qışda bağlı qaldığına görə digər mövsümlərdə çəkilən xərclər də qiymətlərə təsir edir".

Ekspertin apardığı araşdırmalara görə, Azərbaycan Respublikasının "Yaşayış minimumu" haqqında qanunun 1.0.6. bəndinə əsasən aztəminatlı ailə - orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailə sayılır. Azərbaycan Respublikasında 2022-ci il üçün ehtiyac meyarının həddi haqqında qanunun 1-ci maddəsinə əsasən Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2022-ci il üçün ehtiyac meyarının həddi 200 manat məbləğində təsdiq edilib.



"Onların aylıq gəlirləri gündəlik dolanışıqlarına belə çatmır, yardıma ehtiyacı olan insanlardır. Amma yaxşı olardı ki, dövlət tərəfindən onlara istirahət etmək üçün pulsuz yerlər yaradılsın"

Təsəvvür edin ki, 4 nəfərdən ibarət ailənin orta aylıq gəliri 400 manat təşkil edir. 2022-ci il üçün ehtiyac meyarının həddi 200 manat müəyyən edildiyindən, həmin ailənin ehtiyac meyarının məcmusu 200*4=800 manat təşkil edir. Bu halda ailəyə 800-400=400 manat məbləğində ünvanlı dövlət sosial yardımı təyin edilə bilər. Bu ailə aztəminatlı ailə sayılır.

Demək, ölkənin hər hansı yerində istirahət etmək aztəminatlı ailələrin ciblərinə uyğun deyil. Onların aylıq gəlirləri gündəlik dolanışıqlarına belə çatmır, yardıma ehtiyacı olan insanlardır. Amma yaxşı olardı ki, dövlət tərəfindən onlara istirahət etmək üçün pulsuz yerlər yaradılsın. Onlar da bir cəmiyyətin üzvü kimi istirahət hüququndan məhrum olmasınlar.

Onu da əlavə edim ki, Azərbaycan Respublikasında 2022-ci il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikasının Qanunu 1 maddəsinə əsasən 2022-ci il üçün yaşayış minimumu ölkə üzrə 210 manat, əmək qabiliyyətli əhali üçün 220 manat, pensiyaçılar üçün 176 manat, uşaqlar üçün 193 manat məbləğində müəyyən edilsin.

Hesab edək bir ailədir və üzvlərinin sayı 6-dır. 2 əmək qabiliyyətli ana və ata, ümumi gəlir 220+220 = 440 manat. Bir pensiyaçı ata və ana 176 + 176 = 352 manat və 2 uşaq 193+193 = 386 manat. Onlar bu pulla oteldə istirahət edə bilərmi?

Minimum istehlak səbətinin tərkibi dövlət elmi müəssisə və təşkilatlarının, qeyri-hökumət təşkilatlarının iştirakı ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən üç ildə bir dəfədən az olmayaraq müəyyənləşdirilir.

Demək, bu onların minimum dolanışığı üçün nəzərdə tutulub və onların istirahət etmək haqqını burada tənzimləyici rol kimi görmək olmur.

Ölkə üzrə minimum əmək haqqı 300 manatdır. Yəni 300 manatdan aşağı işçiyə maaş verilə bilməz. Bir ailədə 2 şəxs işləyir. Ata və ana hərəsi 300 manat əmək haqqı alır. 2 övladları var, onlar məktəblidir. Onların əmək haqqılarından vergiləri çıxsaq təxmini rəqəm əllərinə ümumu olaraq 270 + 270 = 540 manat edəcək. Bununla onlar əlavə olaraq istirahət edə bilərlərmi? Ailəvi olaraq hətta hesab etsək ki, yerli həmkarlar təşkilatı bunlara məzuniyyət zamanı 80 faiz gedişin haqqını qarşılamaqla göndəriş versə yenə də istirahət etmək mümkün olmayacaq. Demək, minimum əməkhaqqı bazar qiymətlərini nəzərə alaraq ailəyə bəs etməyəcək. Onlar əlavə olaraq istirahətə getdikdə kimlərdənsə borc almalıdırlar (bunu qaytarmaqda var) və ya istirahətdən imtina etməlidirlər.

Ailənin büdcəsi indiki tələblərə uyğun olaraq aylıq yaşayış səviyyəsindən fərqli normaları tənzimləmək üçün minimum hər bir ailə üzvü 1000 manat götürsək və ümumilikdə ata-ana vergiləri çıxmaqla 800 manat alsa belə yenə də istirahət üçün kifayət etməyəcək. Səbəb odur ki, rəsmi statistikaya inansaq 23 faiz inflyasiyanı nəzərə alsaq, bu ailənin ümumi gəliri 1000 manat həddini keçməlidir ki, minimum ölkə daxilində hər hansı bir yerə gedib istirahət etsin. İndiki halda ölkə üzrə statistik rəqəmləri götürsək, ümumi olaraq əhalinin 25-30 faizi bunu özü üçün edə bilər.

**Şəymən**

# Qəfləti ölümlər...

## Daha çox ürək problemləri olan və böyrək çatışmazlığı yaşayanlar risk altındadır



**Son vaxtlar gənclər arasında qəfil ölüm hadisələri geniş yayılıb. Bir də baxırsan ki, heç bir xəstəliyi olmayan insan qəfil dünyasını dəyişib. Bu isə insanlarda narahatlıq və gələcəyə inamsızlıq yaradır.**

Qeyd edək ki, dünən ölüm xəbəri yayılan 17 yaşlı Rəvan Hüseynov da gecə yatıb, səhər oyanmayıb. Yeniyetmə bu il məktəbdən məzun olubmuş.

**Həkim-terapevt Şahvələd Məmmədov "Şərq"ə açıqlamasında deyib ki, gənc insanlar arasında qəfil ölüm hallarına çox nadir rast gəlinir:** "Qəfil ölümlərin ən birinci səbəbi ürək-damar xəstəlikləri-infarktlar və beyinə qan sızmaları, ani beyin qan dövranının pozulması - insultlardır. Yeniyetmələrdə isə bu xəstəliklər olmur. Bu yaşda gəncin ölümünə başqa amillər səbəb olur. Yatıb oyanmadığı iddia edilən 17 yaşlı yeniyetmənin də böyrək çatışmazlığından əziyyət çəkdiyi qeyd olunub. Yəni artıq bu ölüm qəfləti hesab olunmur.

Təsadüfi hallarda ailəsində irsi xəstəlik, ani ürək ölümləri olan gənclərdə bu kimi hallarla rastlaşmaq olur. Və qəfləti ürək dayanmaları daha çox kardioloji problemlərdən baş verir. Buna isə yeniyetmə uşaqlarda çox rast gəlinmir. Ürək tutmaları əsasən 40-60 yaş dövrü insanlar arasında geniş yayılıb".

**Həkimin sözlərinə görə, böyrək çatışmazlığı adi bir xəstəlik kimi görünsə də, bəzi hallarda qəfləti ölümlərə də səbəb ola bilir:** "Böyrək çatışmazlığı böyrəklərin işinin ləngiməsi və ya dayanmasına bağlı olaraq qanda olan su, duz və digər minerallarıın tarazlığının pozulmasıdır.

Böyrəklər işləməyəndə elektrolitlər və tullantı mayelər orqanizmdə toplanmağa başlayır və bu tullantıların səviyyəsi yüksəldikcə ölümcül nəticələr ortaya qoya bilən ağırlaşmalara səbəb olur. Böyrək çatışmazlığından əziyyət çəkən insanda ağırlaşma olanda uremik koma vəziyyətinə düşərək dünyasını dəyişir. Əvvəldən xəstəliyi o qədər ağır olmasa belə hansısa yanaşı xəstəliklər fonunda ağırlaşaraq ölüm riski yaratması mümkündür. Böyrək çatışmazlığından əziyyət çəkən insanlarda arterial hipertenziya qeyd olunur. Ritmin pozulması hiperkaliemiya ilə əlaqədar ola bilir. Bu isə çox təhlükəli haldır və qəfləti ölümə səbəb ola bilir. Onu da deyim ki, böyrək çatışmazlığı xəstələrində arterial təzyiq digər xəstəliklər zamanı baş verən təzyiqdən ağır formada olur. Bunun nəticəsində ürək əzələsinin hipertrofiyalaşması baş verir ki, bu da miokardın distrofiyası və ürək ritminin pozulmasına səbəb olur. İlk əvvəllər ürəkdöyünmə, təngnəfəslik və ürək astması baş verir. Tədricən ürək səbəbli qaraciyər böyüyür və ayaqlarda ödemlər əmələ gəlir. Belə xəstələr ən çox ürək çatışmazlığından ölürlər". Qəfil ölümlərin cavanlaşmasına gəldikdə isə Ş.Məmmədov deyib ki, bu bir reallıqdır. Səbəbi isə insanlarda fiziki aktivliyin əvvəlki dövrlə müqayisədə azalmasıdır. Azərbaycanda tənbəllik, zərərli vərdişlər xeyli artıb. Ölüm yaşının azalmasına birinci səbəb, insanların gündəlik olaraq idmanla məşğul olmaması, məşğul olanların da zərərli dərmanları qəbul etməsi, yağlı qidalara meyillilik göstərilə bilər. Xüsusilə, gecə vaxtı yağlı qidaların qəbulu qanda xolesterin səviyyəsinin yüksək olmasına, maddələr mübadiləsinin pozulmasına və tədricən damarlarda atiromaların olması və daralmasına gətirib çıxarıb. Təkcə siqaret çəkmək deyil, eyni zamanda, siqaret istehsalı da insan üçün təhlükəlidir.

**Şəymən Bayramova**





## Tahir Əmiraslanov təzə qatıq icad etdi

"Kim desə ki, qatıq ağdır, inanmayın!"

**Azərbaycan Milli Kulinariya Mərkəzinin keçmiş direktoru, Əməkdar mədəniyyət işçisi Tahir Əmiraslanov qırmızı rəngdə qatıq hazırlayıb.**

O, bu barədə Feysbuk səhifəsində paylaşım edib. Foto paylaşan kulinar hazırladığı qırmızı qatığın qatığın bəyazdan heç nə ilə fərqlənmədiyini bildirib. "Kim sizə desə ki, qatıq həmişə ağdır, inanmayın. Bu qatıq qırmızıdır, başqa heç nə ilə fərqlənmir. Biz evdə qatığı elə çaldıq ki, qatıq qırmızı oldu. Nəvələrin xoşuna gəlsə də, gül kimi deyimi təkzib etdik, təəssüf ki", - deyə Əmiraslanov qeyd edib.

# Tikinti dayanıb, evlər bahadır

## Hələ ki, daşınmaz əmlak bazarında vətəndaşların xeyrinə, xoşagələn hansısa hadisə baş vermir

**Hər il yay aylarında daşınmaz əmlakların, xüsusilə də bina evlərinin satışlarında durğunluq yaşanır.**

**Bu barədə əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev "Şərq"ə danışıb. O, bildirib ki, yay mövsümündə daha çox torpaq sahələri, bağ evlərinin satışı artır:**

"Bina evlərinin alınması təxminən avqustun sonu, sentyabrın əvvəlində daha sürətlə başlayır. Bir neçə ildir, nağd satışların sayı kəskin azalıb. Pandemiyadan sonra xarici ölkələrlə sərhədlərin bağlı olması və digər səbəblərdən tikinti materiallarının bahalaşması müşahidə olundu. Artım hələ də davam etməkdədir. Bu da tikintinin maya dəyərini yüksəldir. Qiymətlərdəki dəyişikliklər əsasən, tikilməkdə olan binalarda müşahidə edilir. Hazır tikililərdə, uzun müddət yaşanılan və ya təmirsiz qalan mənzillərin qiymətində müəyyən stabillik mövcuddur. Artıma digər bir səbəb isə 2018-ci ildən tikinti normativlərinin dəyişilməsidir. Səlahiyyətlər Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə həvalə edildi. Ondan əvvəlki illərdə yerli icra hakimiyyətləri tikinti ilə bağlı sərəncam vermək iqtidarında idi. Tikinti şirkətləri həmin sərəncama əsasən, az yeri əhatə edən torpaq sahəsində böyükhəcmli binalar inşa edə bilirdilər. İndi isə tələb olunan normativlərdə tikinti şirkətlərinin qarşısına şərtlər qoyulur ki, məsələn, burada 25-30 faiz yaşıllıq sahə olmalıdır. Şirkət əvvəl bir hektar ərazidə 50-60 min kvadrat metr mənzil tikintisini həyata keçirirdi. Kvadratını 1000 manata satırdı. Amma hazırda 28 min kvadrat metr tikə bilir. Məcburdur ki, daha baha satış gerçəkləşdirsin. Çünki əvvəlki qiymətə satsa, nəinki qazanc, hətta zərərlə çıxmış olar. İndiki məqamda ümumən şəhərin mənzərəsinə baxsaq, əvvəlki illərdəki kimi, inşanın getmədiyini görərik. Çünki tikintiyə yararlı torpaq sahələri yox saydadır və qiymət yüksəkdir. İnşa işləri daha çox pilot layihələr üzərindən reallaşdırılır. Sökür, yerində tikir, sakinlərə verir. Bunun da xərci daha bahadır. Hələ ki, daşınmaz əmlak bazarında vətəndaşların xeyrinə, xoşagələn hansısa hadisə baş vermir".



**Sücayət**

## "Sədrin kim olacağının mənim üçün əhəmiyyəti yoxdur"

Qismət Rüstəmov: "Uzun müddətdir AYB-də gedən proseslərlə maraqlanmıram"



**Sentyabr ayında Azərbaycan Yazıçılar Birliyinin (AYB) növbəti qurultayının keçirilməsi gözlənilir.**

Qurultay AYB-nin yeni sədrinin kimliyini müəyyən edəcək. Qurumun hazırkı sədri, Xalq yazıçısı Anar Rzayevin öz namizədliyini irəli sürüb-sürməyəcəyi isə hələlik məlum deyil. Gənc yazarlar hesab edir ki, gəncliyə daha yaxın, problemlərini həll edə biləcək birinin olması daha məsləhətə uyğun olardı.

**Yazar Qismət Rüstəmovun sözlərinə görə, Yazıçılar Birliyinin yeni sədrinin kim olmasının onun üçün heç bir əhəmiyyəti yoxdur:**

"Azərbaycan Yazıçılar Birliyinin üzvlüyündən çoxdan çıxmışam. Təmsil olunmadığım bir Birliyin qurultayı haqqında danışmaq, gözləntilər irəli sürməyi düzgün hesab etmirəm. Qurultay AYB-nin daxili məsələsidir. Bu sualı AYB üzvü olan, hətta bir az da rəsmi statusu olan təmsilçilərdən soruşsanız daha yaxşı olar. Uzun müddətdir AYB-də gedən proseslərlə maraqlanmıram, nə AYB-dən, nə də onun qurultayından bir gözləntim var. Bu, AYB üzvlərinin məsələsidir və kimi özlərinə sədr kimi görürlərsə, ona da səs verib seçəcəklər. Uğurları bol olsun!".

**Şəymən**

## Cəza sərtləşdirilməlidir

Nömrəsiz avtomobil idarə edənlərə güzəşt olmamalıdır



**Zaqatala Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları tərəfindən dövlət nömrə nişanı olmadan avtomobil idarə edən sürücülərin müəyyən olunması istiqamətində nəzarət tədbirləri keçirilib.**

DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan "Şərq"ə verilən məlumata görə, rayon ərazisində keçirilən tədbirlər zamanı üzərində dövlət nömrə nişanı olmadan hərəkətdə olan nəqliyyat vasitələri saxlanılıb. Törətdikləri qayda pozuntularına görə məsuliyyətdən yayınmağa çalışan həmin sürücülərlə profilaktik söhbətlər aparılıb və qanunvericiliyin tələbləri onlara izah edilib. Barələrində müvafiq tədbirlər görülməklə inzibati məsuliyyətə cəlb olunublar.

**Yol hərəkəti üzrə ekspert Ərşad Hüseynovun sözlərinə görə, nömrəsiz avtomobil idarə edən sürücülər bu hərəkəti ilə böyük məsuliyyətsizliyə yol verir:** "Bütün avtomobillər dövlət qeydiyyatına alınmalı, nömrə verilməlidir. Dövlət nömrə nişanı olmayan avtomobillə heç bir sürücü yola çıxa bilməz.

Nömrəsiz avtomobillərlə yol verilən qayda pozuntuları təkcə avtomobil sahibinin yox, elə yol polislərinin də işini xeyli çətinləşdirir. Son dövrlər belə hallara yol verən sürücülərin sayının artmasının əsas səbəbi qanunvericilikdə kifayət qədər sərt cəza tədbirinin olmamasıdır. Belə avtomobil sürənlərə qarşı hər hansı güzəşt edilməməlidir. Belə hallara yol verənlərə qarşı cərimə 60 manatdır və avtomobil mütləq cərimə meydançasına qoyulmalıdır. Sizcə, həmin şəxs cərimədən qorxmur, pulu o qədərmi çoxdur? Hətta imkanlı şəxs olsa belə həmin avtomobil cərimə meydançasına qoyulur və buraxılmır".

**Şəymən**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2252



## Cerard Şakiradan sonra işçisinə aşiq olub

**”Barselona”nın ulduz futbolçusu Cerard Pike iki uşağının anası olan məşhur müğənni Şakiradan ayrılan kimi yeni münasibətə başlayıb. ”The Sun” qəzetinin xəbərinə görə, ispan futbolçunun 12 illik münasibətini bitirdikdən sonra şirkətində çalışan 23 yaşlı tələbə ilə münasibət qurmağa başlayıb.**

İctimaiyyətlə əlaqələr üzrə tələbə olan Martinin məşhur futbolçunun prodüser şirkəti ”Kosmos”da çalışdığı və Pike ilə də orada tanış olduğu öyrənilib.

Martiyə yaxın mənbə ”Cerard və Klara aylardır bir-birilərini görürlər” deyə məlumat yayıb. Həmin mənbə bildirib ki, Marti məşhur futbolçunun şirkətinin təşkilatında çalışır.

”Onlar münasibətləri ilə bağlı susurlar, amma ətrafdakılar nə baş verdiyini bilir” deyən mənbə qeyd edir.

Qeyd edək ki, Pike və Şakira iyun ayında ayrıldıqlarını elan ediblər.

**Turan**

## Balaton turistlərlə doludur

### Göl son 20 ildə belə turist axını görməyib



**Cari mövsüm Balaton ”Macar Rivyerası” üçün rekord olub. Göl son 20 ildə belə turist axını görməyib.**

Azərtac xəbər verir ki, mövsümqabağı yarım milyondan çox sərnişin Balatonda qatarlardan istifadə edib. ”M?V” dəmir yolu şirkəti və ”Volan” avtobus korporasiyası daha dəqiq rəqəm gətirir - ümumilikdə 566 min bilet satılıb. Əsas turizm mövsümünə gəlincə, onun ilk 37 günündə 1,124 milyon bilet satılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 41 faiz çoxdur. Onlardan 784 mini gölün cənub tərəfi, 340 mini isə Balaton gölünün şimal tərəfi ilə səyahət edib.

Balaton-24 və Balaton-72 yenilənmiş gündəlik biletlər təkcə qatarlarda deyil, həm də gölün ətrafında ”Volan” avtobus şirkətinin bir neçə marşrutunda məşhurdur.

Ən populyar istiqamətlər Şiofok (Budapeştdən 110 kilometr cənub-qərbdə), Kesthey (185 kilometr cənub-qərbdə), Zamardi (120 kilometr cənub-qərbdə), Balatonfüred (130 kilometr cənub-qərbdə) və Fonyod (150 kilometr cənub-qərbdə) hesab edilir.







# Oturaq həyat tərzi xəstəlikdir

## Səhər yorğun oyanmağınızın 8 səbəbi var

**Sağlam yuxudan sonra günə enerjili başlamaq istəyirsiniz, amma hər dəfə yorğun oyanırsız. Bunun əsas səbəbləri yuxu rejiminizin pozulmasıdır.**

Mütəxəssislər bildirir ki, sağlam bir yetkin 7-9 saat yatmalıdır.

Amma ümumiyyətlə, bu qızıl qaydaya əməl etməyinizə baxmayaraq hələ də yorulmağınızın 8 səbəbi var.

Kaliforniya Universitetindən Cennifer Martin hesab edir ki, hər növ yorğunluq yuxu gətirməyə bilər. Maddələr mübadiləsinin pozulması ilə anemiya və ya xroniki xəstəliklərdən qaynaqlanan yorğunluq yuxusuzluğa səbəb olur.

Əgər ümumiyyətlə oturaq həyat tərzi keçirirsinizsə, vücudunuz aşağı enerji ilə işləməyə alışacaq. Bu səbəblə gündəlik işinizi görərkən özünüzü lazım olduğundan daha çox yorğun hiss edə bilərsiniz. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) sağlam bir yetkinin həftədə orta hesabla 150 dəqiqə fiziki fəaliyyətlə məşğul olmasını tövsiyə edir.

Psixi vəziyyətiniz də yuxu keyfiyyətinizə əhəmiyyətli dərəcədə təsir göstərir.

Gündəlik işiniz hər gün və ya hər həftə eyni olmaya bilər. Şəxsi planlar və ya iş həyatınız yuxu rejiminizin pozulmasına səbəb olur. Əgər “Cümə günüdür, sabah işləmirəm, o zaman bu gecə gec yatacağam” ifadəsini çox istifadə edirsinizsə, bu o deməkdir ki, yuxu rejiminizin balansı ilə tez-tez oynayırsınız.

Bəllidir ki, bədənimiz 50 faiz sudan ibarətdir. Susuzluq maddələr mübadiləsində bir çox fəaliyyətin pisləşməsinə səbəb olur və yuxusuzluq və yorğunluq gətirir.

Keyfiyyətli və sağlam yuxu üçün yatdığınız mühitin də böyük əhəmiyyəti var. Yaxşı bir yuxu üçün otağınızın kifayət qədər qaranlıq, sakit və gecə soyuq olması çox lazımdır. Həmçinin, yatmazdan ən azı 6 saat əvvəl kofein, spirt və ya ağır qida qəbulunu dayandırdığınızdan əmin olun.

Birlikdə yatdığınız insan da yuxunuza çox təsir edir. Əgər onun hər hansı bir yuxu problemi varsa, sizin yuxu rejiminizə də mənfi təsir göstərəcək. Əgər partnyorunuz tez-tez xoruldayırsa və ya yataqda dönürsə, yuxu keyfiyyətiniz azalacaq.

Yuxu problemi olan insan gecə 50 və ya 100 dəfə oyana bilər. Oyandığınız zaman daha dərin yuxuya getmək sizin üçün daha çətin olacaq. Adekvat və keyfiyyətli yuxu üçün peşəkar yardım alın.

**Turan**

## Kim Çen In koronavirusa yoluxub



**Koreya Xalq Demokratik Respublikasının lideri Kim Çen In COVID-19-a yoluxub.**

TASS xəbər verir ki, bu barədə Şimali Koreya liderinin kiçik bacısı Kim Yo Çjon bildirib.

Koreya Fəhlə Partiyasının təbliğat və təşviqat şöbəsinin sədr müavini postunu tutan xanım Çjon Kim Çen Inın artıq sağaldığını, xəstə olduğu vaxtlarda bir dəqiqə belə işindən ayrılmadığını vurğulayıb.

## Moskva sakini ukraynalı qonşusundan polisə şikayət etdi



**71 yaşlı Moskva sakini ukraynalı qonşusundan polisə şikayət edib.**

Oxu.az xəbər verir ki, buna Odessadan olan qadının digər qonşu ilə mübahisə etməsi səbəb olub.

Qadınlar Ukraynadakı müharibəni qızğın şəkildə müzakirə ediblər. Mübahisə iştirakçılarından biri Ukrayna Silahlı Qüvvələrinin Donbası geri qaytara biləcəyini deyib.

Təqaüdçü əvvəlcə bu sözlərə əhəmiyyət verməyib. Lakin sonradan qonşusunun sözlərini polisə çatdırmaq qərarına gəlib.

## "Artıq boş-boş danışmayın"

### Fahriye Evcen və Burak Özçivit ayrılıq xəbərlərinə aydınlıq gətiriblər




**Türkiyəli məşhur sənətçi cütlük Fahriye Evcen və Burak Özçivit ayrılıq xəbərlərinə aydınlıq gətiriblər.**

Milli.Az xəbər verir ki, Fahriye Evcenin qayınanası ilə mübahisə etməsi və Burak Özçivitin həyat yoldaşına ”Fahriye, bəsdir” deyə qışqırması iddiası şou-biznes gündəmində bomba effekti yaradıb.

Hətta məşhur cütlüyün qonşularının sosial şəbəkədəki paylaşımlarına görə, Evcenin mübahisədən sonra evi tərk etdiyi iddia edilib. Mətbuata əks olunan ayrılıq xəbərinin ardından məşhurlar səssizliklərini pozublar.

Onlar romantik anlarını ”Instagram” hesabından paylaşaraq, ”Artıq boş-boş danışmayın, bizi rahat buraxın...” - deyərək iddiaları təkzib ediblər.



## Oradakı xəzinədən kimsənin xəbəri yoxdur

### Ərdoğan təlimat verdi, işə başladılar



**Hüseyn Qazi Mədəniyyət və İncəsənət Vəqfinin sədri Mehmet Əli Ayyıldız Türkiyə baş qəhrəmanı Battal Qazinin atası Hüseyn Qazinin yaşadığı Ankaranın Mamak rayonundakı hərbi bölgədə yerləşən mağaranın açılmasını Prezident Rəcəb Tayyib Ərdoğandan xahiş edib. Ərdoğanın göstərişi ilə Hüseyn Qazi türbəsindən 800 metr aralıda olan mağaranın ziyarətə açılması üçün işlərə başlanılıb.**

Battal Qazinin atası Hüseyn Qazinin bir müddət mağarada yaşadığını vurğulayan Ayyıldız sözlərini belə davam etdirir:

”Çox böyük mağaradır və 8 ay boyunca su axır. Buranı ziyarətə gələnlər həm bizim türbəmizi, həm də o mağaramızı ziyarət etmək istəyir. Hacı Bektaşdakı deşik daş kimidir. Amma biz onu hərbi bölgədə olduğu üçün götürə bilmirik. ”Tələb etdim ki, bu yer bizə verilsin, hərbi zonadan çıxarılsın və hasarlansın. Biz insanları ora ziyarətə aparmaq istəyirik. Onlara dedim ki, bu, inanc turizmi üçün vacibdir. Hüseyn Qaziyə və Ələvi camaatına hörmətimizi bildiririk. Buradakı Mədəniyyət Nazirimizə və Daxili İşlər Nazirimizə təşəkkür edirəm. Vəziyyətlə bağlı bizimlə məsləhətləşərək ”İşləyin, əlimizdən gələni edək” dedilər. Onlar da bu mövzuda araşdırmaya başladılar”.

Vəqf prezidenti Ayyıldız da Hüseyn Qazi mağarasının tanınmadığına diqqət çəkərək, ”Bizim adamlar buranı bilmir. Bura gələnlər türbəni ziyarət edir, amma oradakı xəzinədən heç kimin xəbəri yoxdur. Ona görə də oranı inanc turizminə görə açmalıyıq”.

Prezident Ərdoğana Hüseyn Qazinin tarixindən və keçmişindən danışdığını ifadə edən Ayyıldız, ”Prezident gedəndə yenidən ona bir şey çatdırmaq şansım oldu. Daxili İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi və valiliyin koordinasiyası ilə bütün Türkiyənin hər yerində cemevlər, dərnəklər, ziyarət yerləri ziyarət edilib: ”Onların dövlətdən tələbləri alınıb və bu barədə məlumat verilir. Yaxında bunu prezidentə təqdim edəcəklər. Cənab Prezidentimizə dedim ki, ”Sizdən yaxşı xəbər gözləyirik”.



## Çin elmi araşdırmalarda ABŞ-ı geridə qoyub

**Yaponiyanın Elm və Texnologiya Nazirliyi elmi araşdırmalara dair yeni hesabat dərc edib.**

Nəşr olunan hesabatda Çinin elmi tədqiqat nəticələri və ”yüksək təsirli” tədqiqatlarda ABŞ-ı geridə qoyaraq dünya lideri olduğu bildirilib.

Elmi tədqiqatların sayına görə ABŞ və Almaniya Çini izləyir. 2018-ci ildən 2020-ci ilə qədər orta elmi məqalələrin 27,2 faizini Çin araşdırmalarının təşkil etdiyi ortaya çıxıb.

Hesabatda Çinin hər il orta hesabla 407 181 elmi məqalə dərc etdiyi, ABŞ-ın 293 434 məqaləsini geridə qoyduğu və dünya tədqiqat məhsullarının 23,4 faizini təşkil etdiyi vurğulanıb. Materialşünaslıq, kimya, mühəndislik və riyaziyyat sahələrində tədqiqatların əsas hissəsi Çinin payına düşür, ABŞ tədqiqatçıları isə klinik tibb, əsas həyat elmləri və fizika tədqiqatlarında daha məhsuldardırlar.

**Turan**

## Nihat Doğan suallara aydınlıq gətirib

### “Arzunu bu evliliyə razı salmaq üçün çox çalışdım”



**Türkiyəli müğənni Nihat Doğan ani bir qərarla iranlı pərəstişkarı Arzu adlı xanımla evlənməsi ilə bağlı suallara aydınlıq gətirib.**

Axşam.az xəbər verir ki, ifaçı nikahı Arzunun hamilə olması səbəbindən erkən etdiyini vurğulayıb:

”Dini nikahımız var idi. Toy edəcəyimiz ərəfədə əmimin həyat yoldaşı vəfat etdi. Buna görə də toyu ərtələməli olduq. Amma həyat yoldaşımın hamilə olması səbəbi ilə rəsmi nikah bağladıq.

Arzunun arxasıyca çox qaçmışam. Onu bu evliliyə razı salmaq üçün çox çalışdım. Anamla İrana gedib onu ailəsindən istədik.

Dostlarımız xəbər vermədən evləndiyimiz üçün bizdən inciyib. Amma uşağa görə, prosesi tezləşdirməli idik. Nəsib olarsa, sonra daha böyük toy edərik”.

*Qeyd edək ki, cütlük bir neçə gün əvvəl evlənib. Arzu Doğan hazırda 3 aylıq hamilədir.*